YAQUB MƏĞRUR

# QADIN
# – SİRLİ TAPMACA

*Həyat ki, var həm çətindi, həm asan,*
*Kədərini sevincinə qat yaşa!*
*Arzuların qoy çin olsun hər zaman,*
*Bir gözəlin vüsalına çat yaşa!*

**Bakı**
**"Araz" - 2012**

**Naşiri və redaktoru:** *Ə. Əlisəfaoğlu*

*Yaqub Məğrur*
*Qadın*
*– sirli tapmaca*
*Bakı, "Araz" nəşriyyatı, 2012, 178 səh.*

*"Qadın – sirli tapmaca" müəllifin beşinci şeirlər toplusudur. Kitaba şairin Anaya və Azərbaycan Qadınına Məhəbbətini, yüngül həyat tərzini milli-mənəvi dəyərlərimizdən üstün tutan xanımlara nifrətini, sevgiyə inamını, insana və ailəyə bağlılığını, real həyat və sevgi hekayətlərini əks etdirən şeir və aforizmləri, həmçinin iri həcmli "Ana sevgisi", "Əsgər sevgisi" və "Qadın – sirli tapmaca" poemaları daxil edilmişdir.*

$$Y \frac{4978987899}{050} 2012$$

**© "Araz", 2012**

# ÖN SÖZ

Yaqub Məğrur bir şair və publisist kimi çox ağrılı, həm də nikbin adamdır. O, Qarabağda doğulub, orda boy atıb və onun yetkin çağında o müqəddəs Vətən torpağı yağıların ayağı altına atılıb. Milli mənəviyyatımız təhqir olunub. Külli Qarabağ, onun möhtəşəm və əsrarəngiz ruhu ləkələnib. Qeyrət qalamız Şuşa yoxdur. Qarabağın toy sarayı dediyimiz Ağdam külə dönüb.

Bütövlükdə Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli, Laçın və Kəlbəcər kimi qüdrətdən səngərli və möhtəşəm Vətənimiz bu gün öz ağır və dözülməz həyatını yaşayır, ancaq məcburi köçkünlərin və didərginlərin – bir milyon insanın yarası üstdə göyüm-göyüm göynəyir. Bütün bu ağrıları Yaqub Məğrur Vətəndaş bir şair və qələm sahibi kimi necə yaşayır? Təbii ki, bu sualın cavabı belə olacaq:

Qarabağda gorgahı talanan, ata-baba yurdu viranəyə çevrilən bir insan, bir duyğulu şair əlbəttə ki, çox çətin, düyünü açılmayan fikirlər içində qıvrılır. Ancaq, Yaqub Məğrur qürurludur, dözümlüdür. O, yaxşı dərk edir ki, hər qaranlıq gecənin bir gündüzü vardır.

Bu günə qədər şairin beş kitabı çapdan çıxıb və ondan artıq kitabın həmmüəllifidir. Bu, onu göstərir ki, o, müntəzəm işləyir, bədii ədəbiyyata seyrçi kimi yanaşmır. Ona görə ki, o siqlətən poetik və əsrarəngiz ədəbiyyatın sirlərinə bələddir. Heç kəsi təkrar eləmir. Onun şeirləri bir növ özünün bədii tərcümeyi halıdır. Son əsəri olan «Qadın – sirli tapmaca» kitabı kövrək hisslərlə, poetik deyimlərlə zəngindir. O, qələmə aldığı hər bir kiçik və böyük şeirində mətləbi aydın olan misralar üzərində fikrini cəmləşdirir. Kitabın lap əvvəlində o, ömür yoluna, yaşına aid bir şeir yazıb. Şeir «Qoşa beşli əlli beşim» adlanır. Yəni, Yaqub Məğrurun 55 yaşı tamam olub. Bu illər ərzində bu kamil kişi dünyanın üzünü də, astarını da görüb, nə qədər çətinliklərlə üzləşsə də öz içinə qapanmayıb.

Şeirlərdən bir bəndə fikir verək:

*Ömür yolum dərə, təpə,*
*Qəlbim coşub gəldi təbə.*
*Könül, keçim qoy mətləbə,*
*Çatdı gəlhagəlli beşim,*
*Qoşa beşli əlli beşim.*

Müəllif Tanrıdan möhlət istəyir. Çünki onun əli ata-baba yurdu olan Cəbrayıla çatmır. Arzuları sonsuzdur. O, yuxularında da Cəbrayılın möhtəşəm təbiətini, torpağın qanı kimi yerin altından süzülüb keçən kəhrizləri, Cəbrayıl çinarlarını, qarşı tərəfdən boylanan əzəmətli dağları yuxusunda görür. Buna görə də Allahın möhlətini bir növ tələb edir:

*Tanrım, möhlət ver bəndənə,*
*Zərbə vurum qoy düşmənə,*
*Doğma yurda yol ver mənə,*
*Başlasın get-gəlli beşim.*
*Qoşa beşli əlli beşim.*

Yaqub Məğrurun mövzu dairəsi genişdir: Ana, ata, Vətən, yurd-yuva, Qarabağsızlıq, o tay, bu tay həsrəti, millət ağrısı və s.

Ana mövzusunda çox şairlər şeir yazıb. Yaqub Məğrur da bu müqəddəs mövzunu – ana yoxluğunu həssas bir oğul kimi çəkir, bu əbədi ayrılığa çətin dözür:

*Ay gözümün nuru, başımın tacı,*
*Mənə həm anasan, həm də ki, bacı.*

*Sənsiz hər bir anım acıdan acı,*
*Yoluna gül-çiçək sərirəm, ana!*

Yaqub Məğrur iri həcmli "Ana sevgisi" poemasını o qədər bədii və ürək ağrısı ilə qələmə almışdır ki, həyəcansız oxumaq olmur. Əsər təpədən dırnağa ələmdən, iztirabdan, kədərdən yoğrulub. Torpaqlarımızın işğalı zamanı cərəyan edən real hadisələrdən bəhs edən poemanın əsas sujet xətti doğma yurd və ana-oğul sevgisi üzərində qurulduğundan oxucunun sinirlərinə işləyir, qəlbləri riqqətə və ehtizaza gətirir:

*...Əzrayıl gəlmiş imiş*
*Oğlanı aparmağa.*
*Onun gənc bədənindən*
*Ruhunu çıxarmağa.*
*Ana imkan vermədi,*
*Heç qorxmadı fələkdən.*
*Balasını qurtardı*
*Ölüm adlı mələkdən...*

Yaqub Məğrur əsərdə müqəddəs ana obrazı yaratmaqla onu ilahiləşdirir:

*...Qala bilməz övladın*
*Taleyinə biganə.*
*Göydə Allah, yerdə o,*
*Yeganədir, yeganə...*

Bununla bərabər poemanın epiloqunda şair oxucularda doğma yurda sevgi, məhəbbət hissləri aşılayır, vətən oğullarını yağı düşmən tapdağı altında olan torpaqlarımızı azad etməyə səfərbər edir.

*...Yaxşı baxın ey insanlar,*
*Kimlər qaldı, kimlər getdi.*
*Yağmalandı doğma yurdum,*
*Qız-gəlinlər əsir getdi.*

* * *

*Heç günahsız xalqın üçün,*
*Bundan böyük dərdmi olar?*
*Duz-çörəyə dönük çıxan*
*Namərd dönüb mərdmi olar?...*

Mən yuxarıda qeyd etdim ki, Yaqub Məğrur nikbin şairdir. Ona görə ki, o, həyata birtərəfli

yanaşmır, həm də sevir, gözəlləri, təbiəti, ali də- yərləri, insanları, xoş ülfəti… Belə olmasa insan cılızlaşar və bir növ quruyar. Həyatı sevmək ümumilikdə dünyanı sevmək deməkdir. «Sevgi məktubu» şeirinə diqqət edək...

*Eşqinə verərəm qurban canımı,*
*Yolunda tökərəm vallah qanımı…*

Bax, bu iki sətir ürəkdən gəlib. Digər mə- həbbət şeirlərində də şair sevgisinə sadiq qalır. «Ay gözəl» şeirində şair fikirlərini bir növ cilala- yır. Bağçasında gülləri qucaq-qucaq olan, Tan- rının verdiyi gözəlliyə biganə qalmayan Yaqub Məğrur sevdiyi gözəlin qıyğacı baxışına da hey- ranlıqla baxır. İsmi-pünhanı olan o ceyran gözlü məşuqənin tərifinə diqqət edək:

*Xallı ceyran kimi ürkək baxırsan,*
*Könül oxşayırsan, ürək yaxırsan,*
*Sanki ürəyimə nizə taxırsan,*
*Ömrümə şimşəktək çaxdın, ay gözəl!*

Digər bir şeirində sevdiyi o müqəddəs var- lığa üz tutan şair o kimsə, onun real gəlişini is- təmir və bəlkə də qıymır:

## *Qadın – sirli tapmaca*

*Zaman ötür, axar sular bulanır,*
*Yol gözləyən gözlər dolur, sulanır.*
*Xəyalların bizdən kənar dolanır,*
*Bəlkə elə ürəyinlə gələsən.*

«Məhəbbət», «Sevgilim», «Qızıl gülüm» «Alın yazısı», «Öyrənin, gəzməyin həddini qızlar», «Qadan alım», «Niyə küsmüsən», «Məhəbbət yaşa baxmır» və bu kimi onlarca şeirləri göstərir ki, onun bu kitabı lirik sevgi toplusudur. Məhəbbətə o, ali gözlə baxır. Elə «Məhəbbət» şeirinə diqqət çəkək:

*Ürəkdən ürəyə keçir pay kimi,*
*Sevən könüllərə axır çay kimi,*
*Səmada bərq vuran günəş, ay kimi,*
*Keçilməz yolları dəlir məhəbbət.*

*İnsanın qəlbində yaşayır hər an,*
*Sevən ürəklərdə keçirir dövran,*
*İnsan dünyasını dəyişən zaman,*
*Onunla bərabər ölür məhəbbət.*

Yaqub Məğrurun bu kitabı «Qadın – sirli tapmaca» adlanır. Məlumdur ki, qadın gözəlliyin əş-

rəfidir, zərifdir, nəcibdir. Qadın son dərəcə ilahi və ruhani bir varlıqdır. Dünyada söz və sevgi doğulandan bu günə qədər əli qələm tutan bütün şairlər qadın haqqında şeirlər yazıblar. Elə şairlərimiz olub ki, qadını hətta ilahiləşdiriblər. Doğrudan da, sirli, söhbətli, ləyaqətli, alicənab, şəfqətli qadınları tərifləmək onları yaradana da xoş gedər. Y.aqub Məğrur da bu dəyərli mövzunun poetik həllini bacardığı qədər verməyə çalışıb.

*…Bizə həzin-həzin laylalar çalan,*
*Həm də həyat verən iki varlıq var.*
*Bəsləyib böyüdən, qoynuna alan,*
*Ulu Yaradanla Ana Torpaq var…*

*…Vallah möcüzəli, ecazkar qadın,*
*Cavabı olmayan bir tapmacadır.*
*Həyatı məst edən füsünkar adı*
*Ulu Yaradandan bir yapmacadır…*
*(Bütün insanlığın zərli tacıdır).*

Hörmətli oxucular!

Yaqub Məğrurun bu kitabında təhlilə cəlb ediləsi, poetik deyimləri ilə seçilən şeirlər çoxdur. Təbiidir ki, bir ön sözdə onların hamısından

söz açmaq qeyri mümkündür. Ancaq şairin yaradıcılığı təbii çalarlarla zəngindir, özünə məxsusdur. Böyük şairimiz Səməd Vurğun demişkən «hər deyilən söz bir yadigardır». Bu ədəbi bolluqda əgər Yaqub Məğrurun beş-on poetik şeiri, şairanə deyim tərzi bizə xoş gəlirsə, deməli o, dəyərli qələm sahibidir.

Arzu edərdim ki, o, bundan sonra da özünün əbədi məsuliyyətini daha da artırsın. Bizi Qarabağa qayıdış ədəbiyyatı gözləyir. Əminəm ki, Yaqub Məğrur bu mövzuda daha məzmunlu, daha diqqətə layiq şeirlər və poemalar yaradacaqdır!

***Ənvər Əhməd,***
*Azərbaycan Yazıçılar Birliyinin*
*Qarabağ Bölməsinin sədri,*
*fəlsəfə doktoru, şair, professor*

# SEVGİLİ-SÖZLÜ DÜNYAM



## QOŞA BEŞLİ ƏLLİ BEŞİM

Ömür yolum dərə-təpə,
Qəlbim coşub gəldi təbə,
Könül, keçim qoy mətləbə!
Çatdı gəlhagəlli beşim,
Qoşa beşli əllli beşim.

Var ömrümün ər qeyrəti,
Düşmənlərə zor nifrəti,
Çəkə-çəkə yurd həsrəti
Gəldi dərdi bəlli beşim,
Qoşa beşli əlli beşim.

Tanrım, möhlət ver bəndənə,
Zərbə vurum qoy düşmənə,
Doğma yurda yol ver mənə!
Başlasın get-gəlli beşim,
Qoşa beşli əlli beşim.

Vətən dərdin çözə-çözə,
Nəzər saldım sözə, saza,
Yeddi kitab yaza-yaza
Coşdu səsi zilli beşim,
Qoşa beşli əlli beşim.

Dəli könlüm, etmə fəqan,
Var yazmağa hələ zaman,
Verə-verə çox imtahan
Aşıb-daşdı selli beşim,
Qoşa beşli əlli beşim.

Yaqub Məğrur yet qüdrətə,
Dədə kimi çat hörmətə,
Allah, ricam var möhlətə!
Gəlsin kamil dilli beşim,
Bir də yeni əlli beşim.

# ANA

Oğul-qız yolunda çəkirsən cəfa,
Ağır günlərini görürəm, ana!
Çəkdiyin zillətin əvəzində mən
Sənə söz çələngi hörürəm, ana!

Ay gözümün nuru, başımın tacı,
Mənə həm anasan, həm də ki, bacı,
Sənsiz hər bir anım acıdan acı,
Yoluna gül-çiçək sərirəm, ana!

Sevinsən mənim də qəlbim çağlıyar,
Kədərə əyilsən köksüm ağrıyar,
Məni tənha qoysan könlüm ağlıyar,
İstəsən canımı verərəm, ana!

# PƏRİ

Gördüm xəstə yatağında
Necə gözəl qızdı Pəri.
Sanki ocaq tonqalında
Parıldayan közdü Pəri.

Ağac düşüb ayağına,
O ağrıyır yana-yana,
Neçə vaxtdır doyub cana
Bu əzaba dözdü Pəri.

Niyə düşüb bu tələyə,
Nə deyim zalım fələyə,
Neyləyim bəxtsiz taleyə?
Axı dərddən bezdi Pəri.

Çəkilməsə əziyyəti,
Düzəlməzdi vəziyyəti.
Qübarlandı qətiyyəti,
Dərdi canda çözdü Pəri.

Çöhrəsində kədər sezdim,
Bu sözləri seçib düzdüm,
Kədərini biz az üzdüm,
Artıq kədərsizdi Pəri.

Burda sona çatdı  yazım,
İnildəyib susdu sazım.
Sonda bunu demək lazım,
Xam ipəkdi, xəzdi Pəri.

## CƏNUB GÖZƏLİ

Xəstələnib düşdüm xəstəxanaya,
Orda bir qız gördüm, oxşayan aya,
Məni qonaq etdi limonlu çaya,
Bir mələk baxışlı cənub gözəli.

Qəlbimə üzünün nuru süzüldü,
Güləndə dişləri dümdüz düzüldü.
Məni xəstə görüb biz az üzüldü,
Alagöz baxışlı cənub gözəli.

Gördüm bu gözəldən hamı razıdı,
Qəlbi ovsunlayan işvə-nazıdı.
Bilinir ki, “oxunmamış yazı”dı,
Səhər gün doğuşlu cənub gözəli.

İnsan bu dünyaya gəldi-gedərdi,
Sevən qəlbə mane olmaq hədərdi.
Bilmir ki, sevgisi hara qədərdi,
Həyatı yoxuşlu cənub gözəli.

Gözəl olmaq qızlar üçün devizdi,
Şairdən gözələ şeir cehizdi.
Onu sevənlərə daim əzizdi,
Şəlalə axışlı cənub gözəli.

Var Yaqubun bu gözələ arzusu,
Xoşbəxt olsun, qoy bol olsun ruzusu!
"Sağ ol!" - dedi ona ürək dolusu,
Gecə ay çıxışlı cənub gözəli.

## SEVGİ MƏKTUBU

Məhəbbət donunu ruhum geyinir,
Əhdimin əyilməz elçisiyəm mən.
Nə qədər sinəmdə ürək döyünür,
Sevgimin əzabkeş yolçusuyam mən.

Əlimi bulayıb qızıl suyuna,
Nazlı gözlərinə sürmə çəkərəm.
İnan ki, hədiyyə edib toyuna,
Səninçün səadət evi tikərəm.

Eşqimə verərəm qurban canımı,
Vəfasız çıxmaram sənə heç zaman.
İstəsən əğyarın tököb qanını,
Rəqibə həyatda vermərəm aman.

Əbədi sevgimiz gəlib zamana,
Mənimlə gəl dağa baxıb ucalaq.
Dağlarda bürünək çənə, dumana,
İllər sınağından çıxıb qocalaq.

Ləyaqət bağına açdım sirrimi,
Şükürlə qəbul et xoş tərifləri.
Anlamaq istəsən əgər şeirimi,
Düz öz sırasıyla baş hərfləri.

# SEVGİ SİRLƏRİ

Məchul bir nöqtəyə baxan gözlərim
Ərklə xatırlayır keçən günləri.
Nəhayət dilimə yatır sözlərim,
Sevgilim üzümə güləndən bəri.

Əzablı yollarla getdim vüqarlı,
Niyyətim ardınca etdim səyahət.
İstədim cücərib olsun nübarlı,
Sevgili gəncliyin sonu nəhayət.

Eşqin dəryasına qərq olan andan
Vəfaya sədaqət andı içmişik.
İllər ötüşdükcə, keçdikcə dövran,
Rəhm ilə anlaşıb dağlar keçmişik.

Əhdimə vəfalı olmuşam daim,
Mənim yar yanında ucadır başım.
Məhəbbət evimdə bu gözəl yarım
Əbədi olubdur ömür yoldaşım.

Layiqdir eşqimə bu su sonası,
Atıb dəm çayıma sevgi həbləri
Haqdır şeirimin sətir mənası,
Əgər oxunarsa baş hərfləri,
Tanınar qəlbimin sevgi sirləri.

# TALE QİSMƏTİ

Allahın əmridi, bəxt yazısıdı,
Bir gözəl xanımla ömr edirəm mən.
Onunla iki qız, iki də oğul
Böyüdüb şərəflə yol gedirəm mən.

Əfsanə yıxılı evin dirəyi,
Aygünü ömrümə çıraq bilmişəm.
Bayramı böyüdüb düşmən önündə
Ovxarlı, kəsərli yaraq bilmişəm.

Novruzdan ad alıb sonbeşik balam,
Ayağı sayalı bayramdı Bayram.
Mən bundan da gözəl, bundan da şirin
Başqa bir ömür-gün xatırlamıram.

Tanrıdan bir özgə umacağım yox,
Şükür eyləyirəm gündə min kərə.
Ömür yollarında borcluyam bilin,
Dizimdə təpərə, alnımda tərə.

## AYBƏNİZ

Gözəl camalından bir cüt göz baxır,
Kim görsə qəlbini yandırıb yaxır.
Gah sola boylanır, gah sağa axır,
Dili qənd-şəkərli, ballı Aybəniz.

Dolanar ömrünə neçə ay gələr,
Neçə bahar gələr, neçə yay gələr,
Bir halal qəhrəman ona tay gələr,
Hər baxışı qeylü-qallı Aybəniz.

Gözəldi Tanrının yetirdiyi bar,
Ətri gül ətridi, gözləri xumar,
Yaqub əmisindən tərifin umar,
Al yanaqlı, qara xallı Aybəniz.

# AY GÖZƏL

Sənə cənnət gülü söyləsəm azdı,
Qəlbimi yandırıb yaxdın, ay gözəl!
Allah nəzər saldı, bəxt-tale yazdı,
Gözəllik taxtına çıxdın, ay gözəl!

Tanrı pay verdiyi camalla öyün,
Canlı bəzəyisən bu yerin, göyün,
Qəlbimi oxşayır ərköyünlüyün,
Gözümdə çeşmətək axdın, ay gözəl!

Bağçanda güllərin qucaq-qucaqdı,
Arzunu çin edən halal ocaqdı,
Çəp baxsan ürəyim oxlanacaqdı,
Yaxşı ki, qıyğacı baxdın, ay gözəl!

Xallı ceyran kimi ürkək baxırsan,
Könül oxşayırsan, ürək yaxırsan,
Sanki ürəyimə nizə taxırsan,
Ömrümə şimşəktək çaxdın, ay gözəl!

# AY QIZ

Çətin olar küsüb sonra barışmaq,
Bal kimi yuxuma süzül sən, ay qız!
Nəyə gərək Ayla, Günlə yarışmaq,
Onsuz da hamıdan gözəlsən, ay qız!

Salmısan sevdanın xoş azarına,
Xoşdu, çıxar məni qul bazarına.
Düş mənim ruhumun laləzarına,
Əgər budağından üzülsən, ay qız!

Qəlbimi məst edir eşqinin səri,
Sənsiz bir ölüyəm, səninlə diri,
Sevda yolçusuyam, dönmərəm geri,
Yoluma min ordu düzülsə, ay qız!

# ÜRƏYİNLƏ GƏLƏSƏN

Dərd əlində gəl qovrulma bu qədər,
Taleyindən gileylənmə belə sən.
Çıxarım yox bu sevdanın yolunda,
Milyon dəfə kimliyimi ələsən.

Sən qəlbimə bir işıqsan, onu bil,
Ömrə-günə yaraşıqsan, onu bil,
Mənə həmdəm bir aşiqsən, onu bil,
İncimərəm oda-közə bələsən.

Baxışların alov kimi yandırır,
Qəlbdə nə var dilə salır, qandırır,
İnamımı, imanımı dandırır,
Nə biləydim əzəl gündən beləsən.

Zaman ötür, axar sular bulanır,
Yol gözləyən gözlər dolur, sulanır,
Xəyalların bizdən kənar dolanır,
Bəlkə elə ürəyinlə gələsən.

## GÖZƏL

Necə oldu urcah oldun yoluma,
Doğmalaşdın, gəlib girdin qoluma,
Mehman oldun sən sağıma, soluma,
Qəlbimə yol tapdın gözümdən, gözəl!

Bu canımı Vətən qəhri sıxırdı,
Qəmin məni hər yerimdən yıxırdı,
Həsrət mənim axırıma çıxırdı,
Payımı umurdum dözümdən, gözəl!

De axtarım günahkarı harda mən,
Rəvadırmı günah gəzəm yarda mən?
Can verirəm eşq odunda darda mən,
Axıb adlayırsan düzümdən, gözəl!

Səni istəyirəm özümdən qabaq,
Ən şirin ləhcəmdən, sözümdən qabaq,
Ruhumu duy, tanı üzümdən qabaq,
Mənanı seç-ayır sözümdən, gözəl!

Eşqin atəşi var qaynar qanımda,
Sənin varlığın da yaşar canımda,
Yoluna çıxanlar mənim yanımda,
Olacaq həmişə dizimdən, gözəl!

# MƏHƏBBƏT

İnsan bu dünyaya qədəm basarkən,
Onunla bərabər gəlir məhəbbət.
Ovlayıb oğlanla qızın qəlbini,
Sultan subaylığı silir məhəbbət.

Ürəkdən ürəyə keçir pay kimi,
Sevən könüllərə axır çay kimi,
Səmada bərq vuran günəş, ay kimi,
Keçilməz yolları dəlir məhəbbət.

Əvvəlcə dolanıb girir ürəyə,
Oradan kükrəyib keçir bərəyə*,
Sonra fontan vurub çıxır görəyə*,
Axıb gözdən-gözə gülür məhəbbət.

İnsanın qəlbində yaşayır hər an,
Sevən ürəklərdə keçirir dövran,
İnsan dünyasını dəyişən zaman,
Onunla bərabər ölür məhəbbət.

---

***bərəyə – ürəkdən gözə keçidə***
***görəyə – gözə***

# SEVGİLİMƏ

Ey gözəl, sevirəm səni əzəldən,
İstəsən verərəm əziz canımı.
Çağlayan sel kimi axıdaram mən
Ayağın altına qızıl qanımı.

Gözündən bir atəş açdın könlümə,
Məhəbbət oxunu sancdın qəlbimə,
İnsafa gəl, əlac eylə dərdimə,
Od vurub yandırma din-imanımı!

Qar kimi əriyib dağlardan axma,
Sən mənə uzaqdan boylanıb baxma,
Sən Allah, bu qədər yandırıb yaxma,
Gəl külə döndərmə son gümanımı!

Gözümə görünmür səndən özgəsi,
Sənsən həyatımın tale cizgisi,
Ey sevən qəlbimin parlaq güzgüsü,
Gəl ol həyatımın nazlı xanımı!

# QIZIL GÜLÜM

Gözəlim, parlayan al yanaqların,
Çağlayan könlümün gəlhagəlidir.
Lalətək açılan bal dodaqların,
Oxuyan bülbülün qızıl güldür.

Heyranam qəlbində açan gülünə,
Adamı məst edən şirin dilinə,
Üzük həlqəsindən keçən belinə,
Dolanan eşqimin qoşa qoludur.

Qəlbimdə yurd salan qaranquşların,
Gözündən millənən çatma qaşların,
Mərmər sinəndəki sirli "daş"ların
Məhəbbət dünyamın haça əlidir.

Ey gözəl, vurğunam sənə əzəldən,
Mən səni seçmişəm min bir gözəldən,
Qəlbini qəlbimlə birgə "düzəldən",
Yaqubun sevirəm deyən dilidir.

# ALIN YAZISI

Gözəlim, ağılla yaşa həyatda,
Anla məhəbbətin doğru-düzünü!
Sən məni arzuma çatdırsan əgər,
İki eyləmərəm bircə sözünü.

İstərəm qəlbindən sevgi süzülə,
Oxşa ürəyimi şirin söz ilə,
Çatma qaş altından gülən göz ilə,
Qəlbimi ovsunla, çəkim nazını.

Neyləyək sevgilim, bu da taledi,
Bu gözəl dünyada qismət belədi,
Tanrım səni mənə qismət elədi,
Mən poza bilmərəm alın yazını.

# KÜSÜB GEDƏN YAR

Gözümün işığı, qəlbimin nuru,
Ülvi məhəbbətim, vəfadarımsan.
Lütfən nəzər salıb dinlə bir məni,
Nazlı maralımsan, gözəl yarımsan.

Ay dəli sevgidən küsüb gedən yar,
Rahatlıq verməyir küsməyin mənə.
Əhdini pozma gəl, söylə bir görüm,
Mən necə edim ki, qovuşum sənə.

## SEL KİMİ

Ülvi məhəbbətin dolaylarında,
Ləyaqət bağına cığır sal, gülüm!
Vəfalı eşqinin saraylarında
İlham pərisitək qanad çal, gülüm!

Yarınla xoş günlər sür bu həyatda,
Yanağın parlasın qızıl gül kimi.
Əhdinə sadiq qal, eşqin yolunda,
Məhəbbət qəlbindən axsın sel kimi.

## QOVUŞUM SƏNƏ

Ey gözəl, de görüm neyləyim ki, mən,
Ləblərə toxunub yovuşum sənə?
Zülfünə bir sığal çəkərək həmən,
Arzuma yetişib qovuşum sənə.

# ŞUX GÖZƏLLƏRƏ

Gözəllik verilir ulu Tanrıdan,
Bilin qiymətini, qədrini qızlar!
Onu xərcləməyin qara pul kimi,
Öyrənin gəzməyin həddini, qızlar!

Bu yeniş-yoxuşlu gözəl həyatda,
Heç zaman əlacsız, düzdə qalmayın!
Kolundan dərilən qızıl gül kimi,
Çalışın gənc ikən siz də solmayın!

İnsanı məst edən al şərab kimi,
Badədən badəyə gülüb axmayın!
Bir dəfə verilən gözəl həyatı,
Adi bir əyləncə bilib baxmayın!

Olub hissiyyatın qultək əsiri,
Heç vaxt tez alışıb erkən yanmayın!
Beşcə gün kef çəkib tez də sönməyi,
Həyatın mənası hər gün sanmayın!

Yaqub arzulayır sevgi-məhəbbət,
Əbədi xoşbəxtlik şux gözəllərə.
Ailə qədrini yaxşı dərk edib,
Sevdiyi oğlanla cüt gəzənlərə.

# QALMA BİGANƏ

Üzünü görməsəm gündə bir dəfə,
Ləzzəti olarmı yaşamağımın?
Vəsf edib hüsnünə nəğmə qoşmasam,
İlhamı gələrmi könül bağımın?

Yarın sevgisindən kənar gəzən qız,
Yaşantı verməyir tənhalıq mənə.
Əhdinə sadiq ol, gəl qoşa gəzək,
Mənim taleyimə qalma biganə!

# QADAN ALIM

Sən qarşıma çıxırsan,
Göz süzdürüb baxırsan,
Nə yandırıb yaxırsan?
Yaxın gəl, qadan alım,
Yarım ol, qadan alım!

Həyatımın leylacı,
Dərdlərimin əlacı,
Gəl başımın ol tacı!
Yaxın gəl, qadan alım,
Yarım ol, qadan alım!

Gözlərini süzmə sən,
Ürəyimi üzmə sən,
Məndən kənar gəzmə sən!
Yaxın gəl, qadan alım,
Yarım ol, qadan alım!

Sevdiyimi bil, ay qız,
Göz yaşını sil, ay qız,
Bir ürəkdən gül, ay qız!
Yaxın gəl, qadan alım,
Yarım ol, qadan alım!

## NİYƏ KÜSMÜSƏN

Niyə məndən yan keçirsən,
Neyləmişəm sənə, gözəl?
Qəlbindəki pak sevgini
Qıymayırsan mənə, gözəl!

Allah kəlamıdır salam,
Sən vermirsən, mən də alam,
Qoyma məni tənha qalam,
Gəl salam ver yenə, gözəl!

Bulaq kimi çağlayırsan,
Ürəyimi dağlayırsan,
Qismətimi bağlayırsan,
Etmə mənə tənə, gözəl!

Sevən kişi ər kişidir,
Könül vermək yar işidir,
Bu, həyatın gərdişidir,
Gəl çıxaq ağ günə, gözəl!

Bu həyatda gözəl çoxdur,
Ancaq səndən gözəl yoxdur,
Hər baxışın qızıl oxdur,
Sancılır qəlbimə, gözəl!

Küsüb məni məlul etmə,
Gəl Məğruru zəlil etmə,
Məni yalqız qoyub getmə,
Qayıt ürəyimə, gözəl!

# MƏHƏBBƏT YAŞA BAXMIR

Cavan bir gözəli sevərsə əgər
Saçları ağarmış yaşlı bir kişi,
Qızın da qəlbində eşq oyanarsa
Deməli taleyin tutub gərdişi.

Sevgi-məhəbbətin kor olur gözü,
Eşq odu düşəndə gözdən ürəyə.
O cavan gözələ qovuşan qoca,
Yenə cavanlaşıb dönür örnəyə.

Taleyin hökmünə əyilən gözəl
Qocanı ömrünün sanır baharı.
Onun ağ saçını ulu dağların
Sanır zirvəsinin ağappaq qarı.

Tarixdə çox olub belə əməllər,
Məhəbbət heç zaman baxmayıb yaşa.
O qız qınansa da qoca yarıyla,
Həyatı birlikdə vurublar başa.

# XOŞ GƏLMİSƏN

Gərgin anlarında, çətin zamanda,
Ötən sınaqlara sinə gərmisən.
Zülümlər çəkdiyin çadır evindən,
Əvvəla Bakıya sən xoş gəlmisən.

Ləyaqət hissini sən bu həyatda,
Zəhmətə qatlaşıb itirməmisən.
Enişli-yoxuşlu dar cığırlarda,
Yadların minnətin götürməmisən.

Namuslu-qeyrətli əməllərinə
Əhsən söyləyərək cuşə gəlirəm.
Bil ki, bu həyatda ay Zeynəb, səni
Əhd edib Yaquba bacı bilirəm.

# XƏSTƏLİYİN DƏRMANI

*(Zarafatyana)*

Gəl sənə söyləyim əzizim Mirzə,
Qadınsız həyatın yetməz bir tərzə.
Dərdə əlac qılmaz min xəstəxana,
Qadındır kişini gətirən cana.
Qəribə gəlməsin bu sözlər Mirzə,
Sözün sehri vardır, qiymət ver sözə!
Məzəli sətirlər çatar dadına,
Söz də bir dərmandır, xeyirdir cana.
Hörmət bəsləyirəm saf zarafata,
Bağışlasın məni yarın Gülbuta.
Sağal, qalx yataqdan, cüt gəzə-gəzə,
O gözəl yarınla qonaq gəl bizə!
Bir sözdən sağalır sanki ölənlər,
Qocalmaz heç zaman deyib-gülənlər.
Zarafat etdim ki, kefin açılsın,
Bu sözlər Yaqubdan yadigar qalsın!

# YADİGAR

Bilirəm ki, sən mənə
Çox hörmət bəsləyirsən.
Qarşıma çıxan zaman
Məndən şeir istəyirsən.

Sənin şeirə həvəsin
Layiqdir hər hörmətə.
Allah səni heç zaman
Çox görməsin Hümbətə.

Arzum budur əyməsin
Qamətini ruzigar.
Bu şeir qalsın Yaqubdan
Xalidəyə yadigar.

## OLMUSAN MƏNƏ DOĞMA

İstəyirəm yazam mən,
Sənə gözəl ğir nəğmə.
Bəri başdan deyim ki,
Olmusan mənə “doğma”.

Həmişə şirin-şirin
"Yaqub dayı" deyirsən,
Görürəm ki, özünü
Mənə yaxın sayırsan.

Elə buna görə də
Ata kimi deyirəm,
Ay gözəl qız, mən səni
Övlad kimi sevirəm.

## ANA

Məni yalqız qoyub getdin həyatdan,
İndi tənha-tənha gəzirəm, ana!
Sənə layiq olan gözəl sözləri
Seçib kəlmə-kəlmə düzürəm, ana!

Sən getdin həyatdan, sinəm dağlandı,
Tənhalıq güc gəldi, qolum bağlandı,
Bəxtim qara gəldi, yolum bağlandı,
Yanına gəlməyə hazıram, ana!

O parlaq ruhunu şad etmək üçün,
Adını əbədi yaşatmaq üçün,
Müqəddəs abidə yaratmaq üçün,
Böyük hərflərlə yazıram: ANA!

## AY ETİBARSIZ...

*(Çörəyi dizinin üstündə olanlara ithaf)*

Niyə belə oldu bizim sonumuz,
İllər qalağında, ay etibarsız?!
Yetim kimi yuyundu ad-sanımız,
Əhdin bulağında, ay etibarsız!

Balana öz balam kimi baxmışam,
El bilir ki, başına tac taxmışam.
Lazım anda şimşək olub çaxmışam,
Ələm dolağında, ay etibarsız!

Etibar etmədin mənə qəfildən,
Torpağını aldı dedin tifildən.
Dilə-dişə düşdüm sənin səfindən,
"İtin yalağı"nda, ay etibarsız!

Namərd olub mən günaha batmadım,
Axı səni tənha qoyub atmadım.
Yaman gündə dedi-qoduya satmadım,
Elin qulağında, ay etibarsız!

Tikanlı sözlərin sorur qanımı,
İnciyən gözlərin yorur canımı,
Budurmu Yaquba olan yanımın,
Adəm zolağında, ay etibarsız!?

Rəqibim çoxalıb, dostum qalmayıb,
Satqınlar Məğrura mehir salmayıb,
İnan ki, heç zaman vəfa olmayıb,
Zənən xeylağında, ay etibarsız!

## ŞÜKÜR

İlahi, sazaqlı qışından belə,
Çiçəkli, çəmənli yazına şükür.
Yüzlərlə təpərsiz kişidən isə,
Azadə Taleh tək qızına şükür.

Yaradan yaradır yoxlardan nəsə,
Acların payını toxlardan kəsə,
Yaramaz, saxtakar çoxlardan isə,
Sənin bircə qram azına şükür.

Azad mətbuatın azad anası,
Qələm aləminin gözəl sonası,
Haqq sözdür ömrünün məğzi, mənası,
Kağız üzərində izinə şükür.

Müqəddəs Məkkədə Hacı olmusan,
“Qafqaz Media”nın tacı olmusan,
Həkimsən, xəstəyə bacı olmusan,
Nur yağan çöhrənə, üzünə şükür.

Məğrur da vurğundur sənin özünə,
Yaxşını pislərdən seçən gözünə,
Nahaqqı doğrayıb keçən sözünə,
Əyrilər içində düzünə şükür.

# AY OĞLAN
*(nadanlara ithaf)*

Bir tində cananla qarşılaşarkən,
Özünü itirib donma, ay oğlan!
Gözəlin can alan baxışlarından,
Od tutub alışma, yanma, ay oğlan!

Axı sən az aşın duzu deyilsən,
Hər yoldan ötənə can-can deyirsən,
Sözün yerə düşsə tez şərləyirsən,
Cidanı çuvalda danma, ay oğlan!

İzləmə qızların duruşlarını,
Gedənin, gələnin yerişlərini,
Nadanlıq, cahillik vərdişlərini,
Həyatın ləzzəti sanma, ay oğlan!

Nazıyla oynasan öyərlər səni,
Göz vursan bir şorgöz sayarlar səni,
Həddini aşarsan döyərlər səni,
Vurub öldürərlər, dinmə, ay oğlan!

Sənin bu səylərin vallah hədərdi,
Bu fani dünya da gəldi-gedərdi,
Həyatın sonucu qəmdi, kədərdi,
Eşqin cin atına minmə, ay oğlan!

Qadına atanda hər atmacanı,
Yada sal can alan gözəl bacını,
Gözünün önünə gətir ananı,
Haqqın düz yolundan dönmə, ay oğlan!

Əgər sevirsənsə kişi kimi sev,
Vətənin mamırlı daşı kimi sev,
Onu ürəyinin başı kimi sev,
Alışıb bir anda sönmə, ay oğlan!

Məğrurun sözləri nə töhmət deyil,
Gözələ söz atmaq məhəbbət deyil,
Sənin hərəkətin mərifət deyil,
Düz sözü tərsinə qanma, ay oğlan!

# GƏNCLİYİMDƏN GƏLƏN QIZ

Xəyallar məkanında
Qanad açırdım yalqız,
Qəfil gəldi yanıma
Qələm qaşlı gəlin-qız,
Gəncliyimdən gələn qız.

Keçmişdi gör neçə il,
İntizarda qalmış gül,
Üşümüşdü elə bil
Gözü yaşla dolan qız,
Gəncliyimdən gələn qız.

Yaş gəlib yaş üstünə,
Qar düşüb baş üstünə.
Qəm töküb qaş üstünə
Çiçək kimi solan qız,
Gəncliyimdən gələn qız.

Məni duymaq istədi,
Qəlbi oymaq istədi,

Suçlu saymaq istədi
Özü suçlu olan qız,
Gəncliyimdən gələn qız.

İki gilə "göz yağı",
Axdı yanaq aşağı.
Çəkdi sinəmə dağı
Məni dərdə salan qız,
Gəncliyimdən gələn qız.

Dedi: - "Ayrı düşəndən,
Yaşaya bilmirəm mən.
Bəs sən necə dözürsən?"
Dərdi yarı bölən qız,
Gəncliyimdən gələn qız.

Basdım onu bağrıma,
Son qoyuldu ağrıya.
Şükr elədi Tanrıya
Bundan razı qalan qız,
Gəncliyimdən gələn qız.

Daddım arzu-kamından,
Gənclik adlı tamından.
İçdi eşqin camından
Gözü yaşlı gülən qız,
Gəncliyimdən gələn qız.

Yaqub, bu nə bəlaymış?
Demə qismət beləymiş.
Əhdə sadiq mələymiş
Göz yaşını silən qız,
Gəncliyimdən gələn qız.

# YENİDƏN DÜNYAYA GƏLMƏYİM GƏLİR

Dinləyib şaqqaraq şax gülüşləri,
Onlara qoşulub gülməyim gəlir.
Görəndə qamətli şux gözəlləri,
Yenidən dünyaya gəlməyim gəlir.

Gözəl baxışıyla girir qəlbimə,
Eşq odu alışıb çıxır beynimə.
Sevgi libasını geyib əynimə,
Yenidən dünyaya gəlməyim gəlir.

Çatdı qaçhaqaçda yaşım əlliyə,
Bir ömrə çatmadı əlim Leyliyə.
İyirmi yaşımda bircə illiyə,
Yenidən dünyaya gəlməyim gəlir.

Məğrur itirməyib heç zaman arın,
Xətrinə dəyməsin qoy xanımların.
İşvəli, qəmzəli gözəl bir yarın,
Qoynunda uyuyub ölməyim gəlir.

# TANRI HƏDİYYƏSİ

Tutub təbiətin bahar vərdişi,
Yayılıb qoxusu könül bağıma.
Deyəsən taleyin tutub gərdişi,
Bir qız “qonaq” gəlib ahıl çağıma.

Olsa da qınaqlar, sıxma-boğmalar,
Ürəkdən çəkəcəm hər bir qayğısın.
Ağappaq hüsnünə qoşub nəğmələr,
Tərənnüm edəcəm könül duyğusun.

Su dolu kuzəni alıb əlimə,
Həmişə yoluna səpəcəm onun.
Qolumu dolayıb incə belinə,
İşvəli gözündən öpəcəm onun.

Məhəbbət sarayı hörəcəyəm mən,
Bu huri-mələyin könül bağında.
Qəlbinin nübarın dərəcəyəm mən,
Qırxıncı otağın qaranlığında.

Qoru soykökümün adın Allahım,
Qoyma xələl gəlsin nəcabətimə.
Sənə eylədiyim hər dualarım,
Qoy olsun şükürlər məsləhətinə.

Bir qıza yazdığım bu zərli sözlər,
Deməyin Yaqubun mədhiyyəsidir.
Bu ağ çöhrəli qız, sürməli gözlər,
Tanrının Məğrura hədiyyəsidir.

# SEVİŞDİYİ OĞLAN ONU ATIBMIŞ

Həyatın bir anı gözüm önündə,
Qaynaya-qaynaya ötüb çağlayır.
Divara söykənib küçə tinində,
Hönkürə-hönkürə bir qız ağlayır.

Görəsən nə dərdi var bu gözəlin,
Niyə dən veribdir o göz yaşına?
Nədən ahu kimi zərif əllərin,
Çırpır gah divara, gah da başına?

Sanki göy gurlayıb, şimşək çaxıbdı,
Axıb ağ buluddan leysan yağışı.
Onu daş divara kədər sıxıbdı,
Gizlənib ətrafdan küsən baxışı.

Sordum vağam vurmuş siyah telindən,
Kimin qəm yükünü götürmüsən sən?
Güclə iki kəlmə çıxdı dilindən,
Dedi sevgilimi itirmişəm mən.

Sən demə bu qızın səhvi ucundan,
Sevdalı günlərin sonu çatıbmış.
Riyakar əğyara aldanışından,
Sevişdiyi oğlan onu atıbmış.

## TUFAN MƏLƏYİ

Bir gün “qonaq” gəldi qarlı dağımda,
Qəlbi viran qoyan tufan mələyi.
Taleyin hökmüylə könül bağımda,
Parladı yeni bir arzu-diləyim.

Qıyğacı boylanıb bircə baxışla,
Məhəbbət toxumu səpdi qəlbimə.
Suvarıb gözündən “yağan yağış”la,
Coşqun ürəyimi saldı tilsimə.

Gah göyə ucaltdı, gah yerə çəkdi,
Səmadan, torpaqdan aldı o dəstək.
Gah sola apardı, gah sağa səkdi,
Axır ki, qələbə çaldı bu istək.

Cücərdi toxumlar, verdi pöhrəni,
Açdı ləçək-ləçək gülü nəhayət.
Gəldi təlatümə, gördü bəhrəni,
Kükrədi qəlbimdə dəli məhəbbət.

Çatdı istəyinə tufan mələyim,
Soyuq qollarını saldı boynuma.

Birdən isinişib oldu mülayim,
Nazlanıb sığındı, girdi qoynuma.

Yaqub ovlayardı bir vaxt şikarın,
Mahir ovçu kimi salıb tələyə.
İndisə ovlanıb, qalıb nigaran,
Bilmir necə təslim olub mələyə.

# BƏSİMDİ

Məhəbbət oxunu sancdım köksünə,
Qəlbini ovlaya bilsəm, bəsimdi.
İstərəm ürəkdən yatam könlünə,
Zərif bir ceyranım olsan, bəsimdi.

İstərəm pak sevgim olmasın hədər,
Yox desən qəlbimi bürüyər kədər.
Mən səni sevirəm dünyalar qədər,
Gözünü süzdürüb gülsən, bəsimdi.

Ömürlük bir yerdə qoşa qalarıq,
Birgə qayğı çəkib yaşa dolarıq.
İnan ki, sevgilim xoşbəxt olarıq,
Qolunu qoluma salsan, bəsimdi.

Bu yazıq ürəyim sənə vurulub,
Qəlbimdə bir mağar evi qurulub.
Gəlin paltarında yana burulub,
Bəylik otağıma gəlsən, bəsimdi.

# EŞQ YOLUNA SƏYAHƏT

Vuruldum bir gözələ,
Həyatımın bir anı.
Sevgi oldu bir tələ,
Mən də onun qurbanı.

O qız baxdı çəpəki,
Eşqim vurdu beynimə.
Çalxalanıb geyindim,
Eşq libasın əynimə.

İlahi, bu aydımı,
Çiçəkdimi, güldümü.
Necə etdi bilmədim,
Əsir etdi qəlbimi.

Bir az gəlib qabağa,
O, sığındı qoynuma.
Bir də gördüm dolayıb,
Ağ qolların boynuma.

Bir qıyğacı baxışla,
Qəfil gəldi məhəbbət.
Bax beləcə başladı,
Eşq yoluna səyahət.

Yaqub, səni sınayır
Yəqin tale yolları.
Açılmasın boynundan
Saf sevginin qolları.

# QƏLBİNİN HAKİMİ OLSA ÖZGƏSİ

Nə olub, nə üçün məndən qaçırsan?
Bu qədər insafsız olma, gözəlim!
Axşam üfüqlərdə şəfəq saçırsan,
Əlçatmaz zirvədə qalma, gözəlim!

Bağışla əzizim, vurulmuşam mən,
Sarı saçlarına əlli yaşımda.
Səni gözləməkdən durulmuşam mən,
Dərdlərin cücərib qarlı başımda.

O qonur gözlərin baxır mənimçün,
Sənə yalvarışım əbəs deyildir.
Bu axan göz yaşım axır səninçün,
Vallah bu ötəri həvəs deyildir.

Kənardan boylanma bir lal baxışla,
İnan ki, ürəkdən sevirəm səni.
Yaxın gəl, qəlbindən bir ləl bağışla,
Bircə dəfə de ki, sevirsən məni.

Həmişə arxanca gələcəyəm mən,
Məğruru ovutmur tale güzgüsü.
İnan ki, dərdindən öləcəyəm mən,
Qəlbinin hakimi olsa özgəsi.

# ƏLLİ YAŞLI GÖZƏLÇƏ
*(Zarayatyana)*

Bir qadın var qocalmış,
Yerlə, göylə əlləşir.
Həyasızlıq edərək,
Qonşularla dilləşir.

Uzun müddət bazarda
Alver ilə küllənib.
Müştəriyə "ataraq",
Puldan yığıb, şellənib.

Qızı yaşda bir qonşu
Onu çəkdi düz yola.
O isə bu qonşunu,
Öldürmüşdü az qala.

Lağ edərək qonşuya
Daim özün öyürdü.
Çəkinmirdi heç kimdən,
Hərzə-hədyan deyirdi.

"Nə olsun ki, ağarıb,
Dedi saçım ay bala!

Gənc olsan da qalmısan,
Zəmanədən çox dala.

Nə olsun ki, cavansan,
Nə özünü öyürsən?
Sən ağbirçək deyəndə,
Sanki məni söyürsən.

Mən qırışmış üzümə
Pudra, krem yaxıram.
Üç güzgüdə bəzənib,
Sağdan-soldan baxıram.

Mənim dolu əndamım,
Kişiləri cəlb edir.
Naz süzülən gözlərim,
Səninkindən qəlbidir.

Əlli yaşım olsa da,
Mən hamıdan gözələm.
Bu hisslər ki, məndə var,
Mən çətin ki, düzələm".

# DÜNYA

Gedir həyatımın ömür karvanı,
İstərdim çox gedə bilməyi, dünya!
Heyif ki, haqsızlar alıb hər yanı,
Peşmanam həyata gəlməyə, dünya!

Sevdim bir gözəli, aldın əlimdən,
Ayırdın sən məni sevən gülümdən.
İndi də düşməyir adı dilimdən,
Çalış, günahını silməyə, dünya!

Leylini Məcnuna neçün qıymadın?
Əslini Kərəmdən aldın doymadın.
Axı sevənləri niyə qoymadın,
Birgə sevinməyə, gülməyə, dünya?!

Döyüşdə yağını hədər çapmışam,
Yurdumu itirib kədər tapmışam.
İmkan ver, yenidən hədəf yapmışam,
Düşmənin səddini bölməyə, dünya!

Kim nə desə hamı ona can deyir,
Mən bal desəm hamı zəhər, qan deyir.
Sağ ol demir, ancaq alış, yan deyir,
Möhtacam xoş sözə, kəlməyə, dünya!

Yaqub, Tanrı qoyan qayda belədi,
Biz gəldi-gedərik, dünya əbədi.
Həyat kainatda bir mərtəbədi,
Yaranıb, yaşayıb-ölməyə dünya.

# OLMUR

Yenə təbiətin tutub gərdişi,
Baharın ətrində uymamaq olmur.
Gülün ləçəyindən öpən bülbülün,
Coşan cəh-cəhini duymamaq olmur.

Günəş şəfəq saçır, şüa əlində,
Qızdırır aləmi yay fəsilində,
Üzüb çimərliyin dalğa selində,
Həzz alıb ləzzətdən doymamaq olmur.

Tanrımız o qədər verib bar-bəhər,
Heyva, nar qoxusu gəlir hər səhər,
Yığıb-yığışdırıb sonda birtəhər,
Cücəni payızda saymamaq olmur.

Qış çağlayır, su çevrilir xar buza,
Şaxta Baba "nəmər" verir Qar qıza,
Yaqub Məğrur nur paylayır nursuza,
İşığı zülmətə yaymamaq olmur.

# GÖZÜMÜN İÇİNDƏN SÜZÜRSƏN MƏNİ

Haçansa gözümə nəzər salmısan,
Almısan qəlbimin hər tərəfini.
Aynaya hər dəfə baxdığım zaman,
Gözümün içindən süzürsən məni.

Ala gözlərini çəkmə gözümdən,
Bahar yağışıtək yağım qəlbinə.
Çağlayım qoy sənin eşq dənizində,
Məhəbbət məlhəmi olum sevginə.

Gözüm yox heç zaman dünya malında,
Mənim sərvətim də, varım da sənsən.
Arzum çiçək açıb gül camalında,
Canımın yarısı yarım da sənsən.

Ey Yaqub Məğrurun tale qisməti,
Bizi ayırmasın heç zaman Fələk.
Birlikdə qoruyaq bu məhəbbəti,
Şərəflə yaşayaq, şərəflə ölək.

# SARI QIZ

Sənə qara dedim, dedin sarıyam,
Qoy sən deyən olsun, neynək sarı qız!
İstərəm hüsnünə bir şeir yazam,
Çəp baxıb xətrimə dəymə barı qız!

Çöhrəndə sezilir, süzür pərtliyin,
Zülfünə yaraşıq verir sərtliyin,
Qəlbində, gözündə gülür mərdliyin,
Daim aydan arı, sudan duru qız!

Sel kimi dağlarda coşub axma sən,
Şimşəktək göylərdə uçub çaxma sən,
Deyilən hər sözə dönüb baxma sən,
Yarınla birlikdə qoşa qarı qız!

Çalış məruz qalma güclü təqibə,
Baş əymə heç zaman əğyar rəqibə,
Əgər ki, inansan Məğrur Yaquba
Bax onda düşməzsən heç vaxt dara qız!

# QƏLBİN GÖZ YAŞINI NECƏ SİLİM MƏN

Əhd-peyman bağladıq düz on il öncə,
And içdin guya ki, məni sevirsən.
O vaxtdan bu dövrə qoşa gəlincə,
Gördüm ki, sən təkcə mənim deyilsən.

Sən mənim eşqimi oğurlayandan,
Həyat ləzzətini görə bilmədim.
Duydum, yeni yarın baxır o yandan,
Taleyim gül dedi, gülə bilmədim.

And-aman edirsən yenə yalandan,
Qəlbin göz yaşını necə silim mən?
Danış – gül deyirsən dönük olandan,
Axı xəyanətə necə gülüm mən?

Səhrada yol getdi ömür karvanım,
Sevgi axtaranda coşdu küləklər.
Naşıya rast gəldi məğrur sarvanım,
Qəlbimdə məhv oldu arzu-diləklər.

Sevdin özgəsini, dəydin şəstimə,
Bu sirri qoru ki, əğyar gülməsin.
Barı mən öləndə qəbrim üstünə,
Qoy ellər buyursun, ancaq gəlmə sən!...

# DEYİR

Həyat yaranıbdır qarlı-xizəkli,
Yenişli, yoxuşlu, daşlı-kəsəkli,
Sənsə nazlanırsan bərli-bəzəkli,
Gözlərin gözümə məni al deyir.

Məni sevdiyini daim deyirsən,
Hörümçək torutək düyün düyürsən,
Könül qapısını yeyin döyürsən,
Dilin gəl qəfəsə məni sal deyir.

Sən eşq piyaləmə nəşə tökürsən,
Qəlbimdə yeni bir toxum əkirsən,
Yarımla arama "çəpər" çəkirsən,
Ürəyin gəl mənim yarım ol deyir.

Həmişə gözümə gülüb baxmısan,
Şimşəktək başımı dəlib çaxmısan,
Deyəsən qəlbimə sahib çıxmısan,
Dilim çıx get deyir, qəlbim qal deyir.

Niyə əsəbləri çəkirsən tarım,
Sənin öz ərin var, mənim öz yarım.
Həyat yoldaşımdır sərvətim, varım,
Salma ürəyimə qara xal deyir.

Mənim öz ailəm, övladlarım var,
Sənin öz ailən, övladların var,
Onların öz hörmət, öz adları var,
Göstərin bizlərə doğru yol deyir.

Ey Yaqub Məğrurun sevgi bəlası,
Bu sevda deyildir mümkün olası,
Bizdən də həyatda bir ad qalası,
Qəlbim öz yarına sadiq qal deyir.

## KİŞİ VƏ QADIN

**K**iminsə qəlbində varsa təpəri,
**İ**çində olarsa ərlik sipəri,
**Ş**ərəfdən yaratsa sərhəd çəpəri,
**İ**llərlə qəlblərdə yaşayar işi,
**İ**nsanlar sayarlar onu ər KİŞİ.

**Q**adının olarsa arı, isməti,
**A**llahdan verilsə nurlu qisməti,
**D**ağlara ucalsa ana hizməti
**İ**lahi yanında ucaldar adın,
**N**əsil yaddaşında qalar mərd QADIN

# BİLƏR

Fitnə fəsad ocağıdır,
Mələk üzlü bu qadınlar.
Xəyanətin qucağıdır,
Qanında iblis qanı var.

Qaniçici bu hörümçək
Hər kəsə tor hörə bilər.
Ərə öpüş əğyarasa
Gizli könül verə bilər.

# SATDI MƏNİ

Bir gözələ könül verdim,
Nazıyla aldatdı məni.
Arxasınca çox süründüm,
Dara çəkdi, çatdı məni.

Yalvardım ki, çəkmə dara,
Ürəyimə vurma yara.
O isə alçaq əğyara
Bir qul kimi satdı məni.

Xəyanətdən axdı qanım,
Yavaş-yavaş çıxdı canım,
Sevgimə çəp baxdı xanım,
Həyatından atdı məni.

# ƏDABAZ QIZLA DEYİŞMƏ

***(Zarafatyana)***

Dedim: - Ay qız, niyə sizdə,
Hamı belə ədabazdı?
Dedi: – Oğlan, qızlar bizdə
Şəhərtipli modabazdı,
Həm də çoxu vədəbazdı.

Dedim: - Çəkilək bir küncə,
Dedi: - Nolar el görüncə?
Dedim: - Bir busə ver öncə!
Dedi: - Gör nə xoş avazdı,
Ancaq ona vədə yazdı.

Dedim: Gəl sevişək, gülək,
Dedi: - Mənə gəlmə kələk.
Dedim: - Haçan elçi gələk?
Dedi: - Vallah o da azdı,
Qaçırılmaq daha sazdı.

# TOY GECƏSİ

Leysan coşub çağlayır,
Bəy-gəlinin şəstinə.
Gözəl bir qız ağlayır,
Düşüb qolum üstünə.

Təzə gəlin gəlibdir,
Allı-güllü yazlığa.
Gecə qalib gəlibdir,
Qadınlığı qızlığa.

Alov düşüb qəlbimin
Sevgi odunluğuna.
Hələ inana bilmir,
O qız qadınlığına.

Başındakı örpəyi
Sürüşüb sol çiyninə.
Çəkib gəlin-gərdəyi
Yaraşıqlı əyninə.

Məsti-xumar şellənib,
Axı nədir səbəbi?
Baxışları zillənib,
Divarlara əbədi.

Gülümsəyib ağlayır,
Yaşla dolan gözləri.
Onu mənə bağlayır,
Pıçıldayan sözləri.

Bu qız gözəl qamətli,
Bir xanımdır mədəni.
Qadının ən qiymətli
Sərvətidir bədəni.

Bəxş eləyir aləmə,
Xoşbəxt, gözəl bir həyat.
Qadın verir kişiyə,
Bədənini mükafat.

# ƏHDİNƏ DÜZÜM MƏNİM

Dilin baltək şirindir,
Gözün necə dərindir,
Qəlbə sevgi hörəndir,
Ay canım, gözüm mənim.

Tanrı ağ gül əxz edib,
Camalına nəqş edib,
Səni mənə bəxş edib,
Ay şirin sözüm mənim.

Alovlanan köz olaq,
Sevişməkdən həzz alaq,
Həyatda cüt iz salaq,
Əhdinə düzüm mənim.

Məğrur könlüm yaralı,
Qoyma solub saralım,
Gəl ol mənim maralım,
İpəyim, xəzim mənim.

# ƏMƏLİN QALDIRDI SƏNİ ZİRVƏYƏ

Mələk siması var sənin üzündə,
Ürəyin oxunur nurlu gözündə.
Qırx il həkimliyin yorğun dizində
Əlliyə yön alıb tibbi xidmətin,
Dən salıb saçına xalqa hörmətin.

Dərdləri sağaldan qızıl əlin var,
Əzəldən bal kimi şirin dilin var,
Səninlə fəxr edən oban, elin var.
Həkimlik elmiylə gəldin ərsəyə,
Əməlin qaldırdı səni zirvəyə.

***

Kənardan boylanan gözlər içində,
İstəkli, istəksiz sözlər içində,
Müqəddəs, hər cürə üzlər içində
İstərəm parlasın orden yaxanda,
Məğrur da fəxr etsin sənə baxanda.

## NUR ÇİLƏDİN GÖZÜMƏ

Qəfildən gözümə çökdü duman, çən,
Çağladı sel kimi yaş gözlərimdən.
Elə bil görərim yox oldu birdən
Təbibə ehtiyac düşdü yadıma,
Gözəl göz həkimi çatdı dadıma.

Dinlədi  diqqətlə o, sözlərimi,
Etdi  müayinə tez gözlərimi.
Şəfəqə bürüdü gündüzlərimi
Təbabət elminin qüdrətiylə o,
Zərif  əllərinin xidmətiylə o.

Sönmüş bəbəklərim sanki oyandı,
Bir anda gözlərim nura boyandı,
Təbibin gücüylə dərdim dayandı.
Elə bil yenidən doğuldum, həkim!
Şəfalı əllinlə sağaldım həkim!

Kor gözlər nurlansın qoy kamalınla,
Tanrı bəxş etdiyi ay camalınla,
Qarşıya qoyduğun xoş amalınla
Möhtəşəm zirvəli dağ ol, Gültəkin!
Ürəkdən deyirəm sağ ol, Gültəkin!

# MAHİRƏ

İlahi möcüzə bəxş edib sənə,
Qalırsan şikəstin daim qeydinə.
Sınmış sümükləri sən dənə-bənə
Yığıb öz yerinə yerləşdirirsən,
Çıxmış hissələri birləşdirirsən.

Yanına gələnlər ahu-zarlıdı,
Zərifsən, həm də ki, qolun “zorlu”du,
Əl추 şəfalı üzü nurludu.
Düşərli əllinlə sağalır insan,
Elə bil yenidən doğulur insan.

Məşğulsan hümanist gözəl bir işlə,
Gedirsən yüksələn bir pərvəlişlə,
Tanrı bəxş etdiyi özəl vərdişlə
Edirsən xalqına qulluq, Mahirə!
Sənə çox minnətdar olluq, Mahirə!

# TƏBRİKLƏR



## SAĞLIĞINA

Dostlar, vurun qədəhləri,
Təzə bəyin sağlığına.
Gənc qızların hədəfləri
Gəlinliyin sağlığına.

Xanımıyla bəy üz-üzə,
Toyda qoşa gəzə-gəzə,
Gah qol-qola, gah göz-gözə
Süzənlərin sağlığına.

Arzum budur a bəy-gəlin,
Ömür sürün, xoşbəxt olun!
Daim sizlə birgə olan,
Yaxınların sağlığına.

Muradınız yeddi oğlan,
Bir qız olsun canlar alan.
Öz yarına sadiq qalan,
Xanımların sağlığına.

Yaqub sözdən çələng hörür,
Sizə ərməğan eyləyir.
Son badəni vurun, deyir:
Ataların sağlığına,
Anaların sağlığına!

# TƏZƏ GƏLİN

Xoş günlər gözləyir səni həyatda,
Onun qədrini bil, ay təzə gəlin!
İlk qədəm qoyduğun o yeni evdə,
Yarınla xoşbəxt ol, ay təzə gəlin!

Dərk elə həyatın dərin mənasın,
Ata-anan verir xeyir-duasın,
Yolunu gözləyir bəyin anası,
Onu öz anan bil, ay təzə gəlin!

Açılıb qismətin, yetişib yaşın,
Səni yola salır qohum-qardaşın,
Bu yeni həyatda ucalsın başın,
Bəylə birgə ucal, ay təzə gəlin!

Muradınız olsun yeddi ər oğlan,
Gözəl bir qız olsun, min canlar alan,
Dilinə heç zaman gəlməsin yalan,
Yarına sadiq qal, ay təzə gəlin!

# MÜBARƏK OLSUN

Yetkinlik dövrünü vurursan başa,
Gələcək zamanın mübarək olsun!
Ata ocağından köçürsən daha,
Bu yeni dövranın mübarək olsun!

Başında ucalsın həmişə tacın,
Kimsəyə olmasın heç ehtiyacın.
Yenicə köçdüyün o evdə bacım,
Yaşanan hər anın mübarək olsun!

Sevincin olmasın heç vaxt nisbəti,
Tanrı qəlbin dolu versin qisməti,
Başından uca tut arı, isməti,
Sənin bəy-sarvanın mübarək olsun!

Məhəbbət süzülsün daim üzündən,
Qaynanan sevinib öpsün gözündən,
İlham al Yaqubun bu son sözündən,
O nurlu qaynanan mübarək olsun!

# ÜRƏKDƏN TƏBRİK EDİR

Əziz balamız Leyli,
Yeddi yaşın var sənin.
Qəlbə yatan camalın,
Gözün, qaşın var sənin.

İndi qədəm qoyduğun
Səkkiz gözəl rəqəmdir.
Sənin hər xoşbəxtliyin
Bizimçün arzu-dəmdir.

Ürəkdən təbrik edir,
Bu sözlə səni atan.
Həm də mübarək deyir,
Əziz mehriban anan.

## ÜRƏKDƏN SEVİN

İllər ötüşdükcə dolursan yaşa,
Üzündən-gözündən yağır məhəbbət.
Qırx yeddi yaşını vurursan başa,
Ad günün mübarək əziz Həqiqət.

Özünü qohumun, dostun, tanışın,
Övladın yolunda oda atmısan.
Məkrli "düşmən"in bəd niyyətiylə
Heyif ki, keçmişdə bada getmisən.

Ürəkdən deyirəm mən bu sözləri,
Sən bizə həmişə ana olmusan.
Verdiyin sözlərə sadiq qalaraq
Bizimlə işləyib yaşa dolmusan.

Problem həmişə başdan aşsa da,
Kollektiv olubdur ikinci evin.
Səni çox istəyir iş yoldaşların,
Onlarla fəxr elə, ürəkdən sevin!

Həyatda həmişə sevirlər səni,
Bir "anabank" kimi dostlar, tanışlar.
Ürəkdən ad günün mübarək deyir,
Sənin də sevdiyin "Təhqiqat"çılar.

# SEVİNC MƏLƏYİM

***Nəvəm Zahidənin bir yaşına ithaf***

Dilinin əzbəridir,
Nənə, baba sözləri.
Nur çiləyir aləmə,
Zahidənin gözləri.

Tamam olur bir yaşın
Axırıncı şad günü.
Baban Yaqub söyləyir,
Mübarəkdir ad günün!

Bu təbrikə qoşulur,
Müşfiq ilə Əfsanə.
Bayram, Novruz və Elxan,
Elvin, Aygün, Cəmalə.

Arzum, sevinc mələyim,
Deyir Məlahət nənən.

Xoşbəxt həyat diləyir,
Sevimli Zeynəb nənən.

Səni təbrik eləyir,
Bütün qohum-əqrəban.
Misir, Faiq, Zahidə.
Bir də ki, Arif baban.

Təbrikinə gəliblər,
Əllərində xonçalar.
Xoşbəxtlik arzulayır,
Sənə "Təhqiqat"çılar.

## ƏRMƏĞAN OLSUN

Yaza bilməmişəm indiyə qədər,
Təbrik şeirləri ad gününüzə.
Qismətiz olmasın heç zaman hədər,
Siz çox yaraşırsız bir-birinizə.

Doğum illəriniz ayrı olsa da,
Dünyaya göz açdız eyni bir gündə.
Fələk doğma yurddan köçkün salsa da,
Tale qovuşdurdu sizi dar gündə.

Bir də almayasız düşməndən zərbə,
Heç vaxt düşməyəsiz tərsə, çətinə.
Nicatla Zahidə, bu iki körpə,
Layiqli övladlar olsun Vətənə.

Hörmətli Müşfiq bəy, Əfsanə xanım,
Qoşa ad gününüz mübarək olsun!
Süfrəniz bol olsun, ay gözüm canım,
Qoy bu şeir sizə ərməğan olsun!

# QARABAĞIN SONASI

Gözəllərin qeydinə,
Mən qalmağa hazıram,
Bu təbriki Aytənin
Ad gününə yazıram.

Mübarəkdir ad günün,
Ey Nigarın anası.
Xoş gəlir hər şad günün
Qarabağın sonası.

İstəyirəm çoxalsın,
Övladlarının sayı.
Tanrımız bəxş eyləsin,
Sənə bir oğul payı.

Çıxmaz haqq sevərliyin
Dost-tanışın yadından.
Səni təbrik edirəm,
"Təhqiqat"ın adından.

# AY QIZ

Gözəllər gözəli olmusan indi,
O ala gözlərin gözəldi, ay qız!
Düşündüm, qələmim dilləndi, dindi,
Söz də gözəlləşdi, düzüldü, ay qız!

Ox kimi burulub göz üstə qaşın,
Şərəfdən ucalıb həmişə başın,
Artıq tamam olur on doqquz yaşın,
Təbrikin şeirə süzüldü, ay qız!

* * *

Həmkarların tost deyirlər adına,
Söz qoşurlar şərəfinə, şanına.
Qırx ikinci baharını ömrünün,
Yaqub Məğrur təbrik edir, Afina!

* * *

Ən gözəlsən gözəllər arasında,
Birincisən sonalar sırasında.
Ad günündə qoy çalınsın ballada,
Dostlar səni təbrik edir, Ellada!

# QAYIDASAN YURDUNA

Keşməkeşli ömrünün
Xoşbəxt keçib əzəli.
Tanrı səni yaradıb,
Azərbaycan gözəli.

Məcbur olub düşmüsən,
El-obadan aralı.
Yurd həsrəti çəkirsən,
Ey Mərcanlı maralı!

Qayıdasan yurduna,
Bu günlərin birində.
Qeyd edəsən ad günün,
Öz doğma yurd yerində.

Zeynəb xanım, çıxarma,
Bu ad günün yadından.
Səni təbrik edirəm
"Təhqiqat"ın adından.

# QİSMƏTİN OLSUN

İyirmi yaşını vurursan başa,
Çalış ki, həyatda firavan yaşa.
Doğma Mərcanlıda, qalan ömrünü,
Yüz yaşda mənalı vurasan başa.

Ürəyin həmişə fərəhlə dolsun,
Böyük toy məclisi nəsibin olsun.
Bax budur atanın xeyir-duası,
Bir xoşbəxt ailə qismətin olsun.

Səni təbrik edir atanla anan,
Bacı-qardaşlarla dostlar, tanışlar.
Aygün, hər ad günün, hər xoş məramın,
"Mübarəkdir!" - deyir "Təhqiqat"çılar.

# BƏNZƏYƏSƏN QIZIL GÜLƏ

Xoş gəlmisən soy-kökümün,
Davamına əziz nəvəm.
Günəş kimi parıldayan,
Şirin, şəkər, ləziz nəvəm.

Tən bölünən alma kimi,
Bənzəyirsən lap anana.
İstəyirəm xasiyyətdə,
Oxşayasan sən də ona.

Həyatının bir ilini,
Vurdun başa gülə-gülə.
Niyyətimdir böyüyəndə,
Bənzəyəsən qızıl gülə.

Xoşbəxt həyat arzulayır,
Sənə Yaqub Məğrur baban.
Tanrı səni hifz eləsin,
Bədnəzərdən Aytac balam!

Qoşulurlar bu təbrikə,
Nənələrin, babaların.
Atan, anan, əmin, dayın,
Xalaların, bibilərin.
Hamı deyir: Amin! Amin!

# NUR KİMİ

Kəklik kimi süzürsən,
Süzənlər arasında.
Məncə sən birincisən,
Gözəllər sırasında.

Par-par parıldayırsan,
Aydan gələn nur kimi.
Dolanırlar başına,
İstəyənlər pir kimi.

Ad gününə toplaşıb,
Bütün dostlar, tanışlar.
Məclisi şənləndirir
Çalğıçılar, manıslar.

Mübarəkdir iyirmi
Birinci yaşın, Aydan!
Səni təbrik edirəm,
"Təhqiqat"ın adından.

# NURİDƏ

*(Dostum N.Nursaçanın 50 illiyinə)*

Bəzisi dünyada bəxtdən yarıyır,
Bəzisi taledən küskün qarıyır.
Gecəni gündüzə qatıb arıyır,
Qaranı dəyişir ağa Nuridə.

Tanrıdan verilib nuru, qisməti,
Başdan uca tutur arı, isməti,
Özünə borc bilir xalqa xidməti,
Ucalır zirvəyə, dağa Nuridə.

Görübdür həyatın hər ehtiyacın,
Qoyubdur başına həqiqət tacın,
O, mənim hünərli, qeyrətli bacım,
Əyilməz nə xana, şaha Nuridə.

Çöhrəsi oxşayır huri-mələyə,
Ürəkdən inanır bəxtə, taleyə,
Hərdən gileylənir çərxi-fələyə,
Boylanır gah sola, sağa Nuridə.

Həyatda qazanıb Nursaçan adın,
Götürmür tənəsin heç zaman yadın,
Doğruldur millətin hər etimadın,
Dua edə-edə Haqqa Nuridə.

# AYIRMASIN BİZİ ÖLÜM

Hər baxışın dərin məna,
Tükənməzdir məhəbbətin.
Aşiqəm gül camalına,
Sədaqətli Məlahətim!

Keşməkeşli həyatımda
Mənə ana, bacı oldun.
Çətin gündə həm dayağım,
Həm başımın tacı oldun.

İki oğul, iki də qız,
Bəxş etmisən mənə, gülüm!
Qalmayasan tənha, yalqız,
Ayırmasın bizi ölüm.

Arzuların qanadında
Əlli yaşın tamam olur.
Uzun ömür, cansağlığı
Arzulayır Yaqub Məğrur.

# POEMALAR



# ANA SEVGİSİ
***(Yeni variantda)***

## PROLOQ

Rəvayətlər, dastanlar
Qoşulsa da adına,
Hələ tam oxunmamış
Sirli sətirdir ANA.

Açılmış çiçək kimi
Qoyulsa da güldana,
Sanki qoxulanmamış
Güldür, ətirdir ANA.

Tanrının qüdrətiylə
Həyatın davamına,
İlahi varlıq kimi
Övlad gətirir ANA.

Övlad düşməsin deyə
Fələyin bəlasına,
Sanki ona sipərdir,
İncə çətirdir ANA.

Tanrı ona nə versə
Bəxş edir övladına,
Gecə-gündüz şam kimi
Yanır onun oduna.

Qala bilməz övladın
Taleyinə biganə.
Göydə Allah, yerdə o,
Yeganədir, yeganə.

Bu fani dünya sanki,
Bir qazandır, qaynayan.
Dünyada yaşayanlar
Yolun azıb oynayan.

Taleləri yazandır,
Qisməti bölüşdürən.
Yazılanı düzəndir,
Əmələ qiymət verən.

Elə bil ki, çatıbdır,
Axırı dünyanın ah..!
Namussuz - qeyrətsizlər,
İşlədiblər çox günah.

Doğma eli, obanı,
Viranə qoyub tamah.
Varsa xalqın günahı,
O nədir görən, Allah?!

* * *

Qarabağ torpağında,
Firəvan bir kənd vardı.
Buradakı sakinlər
Mehriban yaşayardı.

Varıydı həm "zəm-zəm"i,
Həm abi-gövhər suyu.
Qapılarda olurdu
Gündə bir oğul toyu.

Ancaq uzun sürmədi,
Belə gözəl bir həyat.
Qapılardan yox oldu,
Səsli-küylü toy-büsat.

Elə bil gözə gəldi,
Bu camaat, bu torpaq.
Xalq tilsimə salındı,
Yazda töküldü yarpaq.

Birdən xəbər çıxdı ki,
Qudurub qurbağalar.
Türkdən torpaq istəyir,
Quruldaşan dığalar.

Xalq qalxaraq ayağa,
Birləşdi yumruq kimi.
Qorumaq istədilər,
Torpağı Domrul kimi.

Belə olmadı ancaq,
Xalqı qırdı dığalar.
Kömək etdi kafirə,
Kremldən “ağa”lar.

Kömək etdi düşmənə,
Bizim satqın yaltaqlar.
Özümüzdən saplanan
O kəsəyən baltalar.

Uşaqlı qadınları,
Qocaları qırdılar.
Vahiməyə salaraq,
Yurdundan qaçırdılar.

El-obanı qorudu,
Yurdun mərd igidləri.
Qoyub qaçdı Vətəni,
Bu elin namərdləri

Bir ağbirçək ana da
Yaşayırdı bu kənddə.
Yerləşirdi kəndləri
İran ilə sərhəddə.

Oğlu istəyirdi ki,
Anasını göndərə,
Cəbhədən uzaq olan
Təhlükəsiz bir yerə.

Sonuncu avtomaşın
Çıxıb gedəndə kənddən,
Oğlu duyuq düşərək
Xəbər tutdu qəflətən.

Çalışdı mindirməyə
Anasını maşina.
Ancaq oğul sözünə
Onda baxmadı Ana.

Ana dedi oğluna:
– ”Mən namərdlik etmərəm.
Səni bu yurdda heç vaxt
Tənha qoyub getmərəm.

Qalar olsan qalaram,
Ölsən ölərəm mən də.
Şəhid olaram durub
Vətənin keşiyində”.

Oğul çox fikirləşdi,
Çarə tapdı nəhayət.
Anasını apardı
Araz səmtinə şayət.

Çayda üzən qayıqla
Yola saldı “o taya”.
Orda bir an durmadan
Tez qayıtdı “bu taya”.

Ananın göz yaşları
Sel kimi axdı yolda.
Xəbər tuta bilmədi,
Ancaq yurddan, oğuldan.

İran qəbul eylədi
Bu köçkün-qaçqınları.
İmişliyə göndərdi
Yaşamaqçün onları.

Çadır şəhərciyində
Qeydə alındı Ana.
Dörd rəqəmli sırası
Yazıldı çadırına.

Ona verildi çörək,
Ərzaq, paltar, yanacaq.
Ana dözə bilmirdi,
Oğul dərdinə ancaq.

Bir həftəydi ananın
Gözləri yol çəkirdi.
Ana Vətən həsrəti,
Torpaq dərdiydi dərdi.

Onu yandırıb-yaxan,
Sızıldadan-ağladan,
Vətəndə girov qalan
Oğul dərdiydi dərdi.

Dözə bilmirdi Ana,
Daha bu dərd, bu qəmə.
Qarğıyırdı elə hey
O, qaniçən düşmənə.

Qaldırıb əllərini
Yalvarırdı Allaha.
Sağ qalardı balası
Dönüb doğma torpağa.

Xəbər tuta bilmirdi
Gəlib-gedəndən Ana.
Xəbər verə bilmirdi
Oğlundan heç kim ona.

Zilləmişdi gözlərin
Doğma Vətən yoluna.
Həsrət dolu baxışla
Qalmışdı yana-yana.

Sərhəddin qapıları
Sanki qardaş əliydi.
Açılmışdı, elə bil
Təbrizimin qoluydu.

Dar gündə köçkünlərin
Bu ən ağır halıydı.
Məhv olmaqdan, ölümdən
Əsil nicat yoluydu.

Çaydan keçənlər dedi:
– Torpaqları aldılar.
Xocalının gününə
Kəndimizi saldılar.

Təxribatla millətə
Ağır zərbə vurdular
Yurdun tərk etməyəni
Vəhşiliklə qırdılar

Sarsıldı bu xəbərdən,
Ana şivən qopardı.
Burdan bu bəd xəbəri
Tez Çadıra* apardı.

Çadırda yas qurdular,
Şəhidləri andılar.
Onlar qisas hissiylə
Alışdılar, yandılar.

---

**** Biləsuvardakı Çadır şəhərciyi nəzərdə tutulur.***

Gecə-gündüz ağlayıb
Aləmə səs saldılar.
Düz bir həftə sızlayıb
Yaman günə qaldılar.

Üz tutub Yaradana
Ana əhd eləyirdi.
Oğlun ölü, ya diri
Tanrıdan diləyirdi.

Ana deyirdi: – "Oğul,
Kaş tapaydım qismini.
Tapşıraydım torpağa
Şəhid olan cismini.

İnciməzdi göylərdə
Qanad çalan ruhun da.
Bir az təsəlli tapıb
Rahat olardım onda..."

Həftənin tamamında
Qapı açıldı birdən.
Daxil oldu çadıra,
Yası tutulan sərgən.*

---

***Sərgən –yurd-yuvasından didərgin düşən oğlan***

Bu nədir, yuxudurmu,
Yoxsa həqiqətmidir?
Tanrıdan bu anaya
Bəxş olan nemətmidir?

Oğlunu sağ görəndə
Ana getdi özündən.
Övlad su verdi ona,
Öpdü yaşlı gözündən.

Ayıldı bu məlhəmdən,
Ana gəldi özünə.
Dedi qurban olum mən,
Sənin Ana sözünə.

Ana qalxıb yerindən
Baxdı, süzdü, kövrəldi.
Gözünə inanmadı,
Gah ağladı, gah güldü.

Övladını qucaraq
Ana basdı bağrına,
Sanki ”yox olar” - deyə
Sarmaşmışdı oğluna.

Hamı gəlib Anaya
Gözün aydın deyirdi.
Xalqı bu günə salan
Ermənini söyürdü.

Bu vüqarlı ağbirçək
Dik tuturdu başını.
Oğlunun gəlişinə
Tökürdü göz yaşını.

O, naşükür olmadı,
Şükr elədi Allaha.
Oğlu salamat gəlib,
Ona nə lazım daha.

İndi arzulayırdı,
Dönə doğma torpağa.
Qalan ömrü yaşayıb,
Orda başa vurmağa.

Bu minvalla yaşadı,
Ana-oğul çadırda.
Gah yayın istisində,
Gah boranda, gah qarda.

Yaddaşında qorudu,
Əsir qalan Vətəni.
Xəyallarda yaşatdı,
Yurdda ölüb itəni.

Ana möhkəm dözürdü,
Onu boğsa da  kədər.
Bilinmir haradandı,
Onda dözüm bu qədər.

Ana layla çalırdı,
Övladı rahat yata.
Onlarla yaşayırdı,
Doxsan beş yaşlı ata.

Yurd həsrətli qoca ər
Bilməyirdi neyləsin.
Gözləri də tutulub,
Dərdi kimə söyləsin.

Qırx bir-qırx bir cənginin
Alovundan keçmişdi.
Faşistlərin beşiyi
Berlinədək getmişdi.

Qayıtmışdı döyüşdən
Qələbəylə evinə.
Şan-şöhrət gətirmişdi,
Torpağına, elinə.

Uğrunda döyüşdüyü
Sarıqulaq namərdlər,
Dığaları qısqırıb
Üstünə göndərdilər...

...Cavanlıqda bu qoca
Dağda çoban olmuşdu.
Ermənilər obaya
Oğulruqçün dolmuşdu.

Bu igid türk balası,
Süvar olub atına,
Dığaları qovmuşdu,
Söymüşdü lap zatına...

...İndi bu qoçaq kişi,
Yurdundan köçkün idi.
Onu bu hala salan
Taledən küskün idi.

Hamı kimi dərdliydi,
Vətən dərdiydi dərdi.
El-obanı, torpağı
Satan dərdiydi dərdi.

Bircə arzusu vardı,
Son qoyula zorluğa*.
Gedib doğma Vətəndə
Qoyulaydı torpağa.

Ancaq imkan vermədi
Əcəl ona bu zaman.
Ana itirdi ərin,
Halı pis oldu yaman.

Kişini qəbr evində
Hörmətlə dəfn etdilər.
Sızlayıb qəm içində
Evlərinə getdilər.

Quruldu yas çadırı,
El sızladı ağladı.
Ağsaqqalı itirmək
Ürəkləri dağladı...

---

**** Zorakılığa***

...Çox çətin yaşayırdı,
Çadırda didərginlər.
Humanitar yardımla
Dolandı qız-gəlinlər.

Beş çadır şəhərciyi
Salınmışdı Muğana.
Dördüncüdə yaşardı
Həmin oğulla ana.

Muğanın torpağı da,
Suyu da çox çorandı.
Yazı, yayı istidi
Qışı çovğun - borandı.

Dözmək olmur istiyə
Burda yaşamaq çətin.
Şaxta qılınctək kəsir,
Olmaq lazımdır mətin.

Üç il keçdi aradan,
Dövran keçdi bax belə.
Siqaret tüstüsütək,
Ömür verildi yelə.

Çadır unudulmadı,
Gələn-gedən çox oldu.
Bundan çarə olmadı,
Köçkün saraldı, soldu.

“Dərd tutduğun buraxmaz”
Deyib aqıl atalar.
Çox igidlər aparıb,
Ağlar qalıb analar.

Günlər keçdi aradan,
Aylar, illər dolandı.
Bir gün həmin oğlana
Bəd xəstəlik calandı.

Dəhşətli ağrıları
Zülm etdi şirin cana.
Oğlunun bu dərdinə.
Dözə bilmirdi ana.

Həmin günün səhəri
Qəbul etdi oğlanı,
Biləsuvar şəhəri -
Xəstəxana loğmanı

Ana qaldı çadırda
Körpə nəvələriylə.
Çünki xəstəxanaya
Getdi gəlin əriylə.

Müayinə göstərdi
Xəstə qalmaz sabaha.
Həkim dedi təcili
Ehtiyac var cərraha.

Cərrahlıq otağında,
Narkoz verib oğlana,
Rahlayıb uzatdılar
Əməliyyat stoluna.

Üç saat davam etdi,
Bu gərgin əməliyyat.
Həkimlər çox çalışdı,
Xilas edildi həyat.

Oğlan  çox gec ayıldı,
Bu məcburi yuxudan.
Dərk etməyə çalışdı,
Olanları yaxından.

Müalicə olundu,
Oğlan ciddi rejimlə.
Sağalmağa çalışdı,
Birgə cərrah həkimlə.

On gün keçdi aradan,
Həkim girdi otağa.
Onun qolundan tutub,
Dik qaldırdı ayağa.

Xəstəni gəzdirdilər,
Yavaş-yavaş o çağda.
Solunda həkimiydi,
Həyat yoldaşı sağda.

Bir gün ana dözmədi,
Gəldi oğul yanına.
Göz yaşları axıtdı,
Dua etdi canına.

Qollarını doladı,
Övladının boynuna.
Başını tumarladı,
Aldı ana qoynuna.

Öpdü, öpdü, doymadı,
Oxşadı balasını.
Övladı da doymadı,
Öpməkdən anasını.

Oğul dedi: – Anacan,
Niyə zəhmət çəkmisən?
Durub çadırdan bura,
Bu əzabla gəlmisən.

Ana dedi, bəlkə də
Çatıb ömrümün sonu
Bu dünyada ölüm var,
Həzm eləyir insanı.

Fikirləşib düşündüm,
Dedim birdən ölərəm.
Səninlə görüşmədən
Qəbrə köçə bilərəm.

Qurbanın olum bala,
Dözə bilmirəm sənsiz.
Çadırda hiss edirəm,
Mən özümü kimsəsiz.

Qoy gəlini göndərim,
Uşaqların yanına.
Yaxşı qulluq eyləyinm,
Sənin xəstə canına.

Oğul dedi: - Anacan,
Qoy dəyməsin xətrinə!
Burda xidmət çətindir,
Olar ağır yük sənə.

Məndən nigaran qalma,
Get çadırda rahat ol!
Həm də nəvələrindən
Bir azca muğayat ol!

İnşallah sağalaram,
Qayıdaram yanına.
Onda qulluq edərsən,
Xəstə oğul canına.

Sağollaşdı Ana da
Övladını duyunca.
Uzaqlaşdı oradan
Baxıb ona doyunca.

Ana gəlib çadırda
Xeyli rahatlanmışdı.
Oğlunu sağ görməyi
Bir qənimət sanmışdı.

Ana gecə yatanda,
Bir yuxuya qovuşdu.
Rəhmətlik kişi ondan
Övladını soruşdu.

Ana cavab verdi ki,
”Narahat olma, kişi!
Oğlun daha sağalıb,
İndi yaxşıdır işi.

Çıxıb gələr evinə
On günə, on beş günə.
Demişəm qurban kəsəm
Oğlunun gəlişinə”.

Ata razı qalaraq
Yox oldu birdən birə.
Getdi Haqq dünyasında
Ona ayrılmış yerə.

Ana gecə çadırda
Görərkən bu cür yuxu.
Oğul xəstəxanada
Gördü başqa bir yuxu.

Oğlan gördü o gecə
Kimsə əməl - feliylə,
Sinəsinə çökərək
Onu boğur əliylə.

”Bissimillah” – deyəndə,
Əllər yox oldu birdən.
Ayılanda gördü ki,
Bədən islanıb tərdən.

Vaxtı bilmək istədi:
- Gecə saat ikidi.
Belə bir yuxu görmək,
Ona ağır yük idi.

Güclə qalxıb ayağa
Örtdü qapı-bacanı.
Nə etdisə çıxmadı,
Canından həyəcanı.

O yenidən yatanda
Çökərək sinəsinə,
Tutaraq boğazından
Boğdu iki əl yenə.

O gözə görünməyən
Həmin o güclü əllər,
Boğaraq bu cavanı
Nəfəsin kəsirdilər.

Nə qədər çarpışsa da,
Çıxış yolu tapmadı.
O əlləri dartsa da,
Boğazından qopmadı.

Hayqırmaq istəsə də,
Onun səsi ölürdü.
Qışqırıq əvəzinə
Xırıltısı gəlirdi.

Bu axır nəfəsində
Oğlan itirdi başın.
Tez oyatmaq istədi,
Yatan həyat yoldaşın.

Bu məqsədlə toxundu
Onun çarpayısına.
Elə bildi çalışar
Yoldaşı xilasına.

Kömək yox yoldaşından,
Qeyb olmuşdu elə bil.
Bülbül ölür qəfəsdə,
Nə bərk yatıb belə gül.

Bu an həmin yataqdan
Birdən qalxdı ayağa.
Gəlinin əvəzinə
Dümmağ paltarda Ana.

Elə bil ki, əzəldən
Burda yatan o imiş.
Neçə günlərdən bəri
Burda gəlin yox imiş.

Yandırdı işıqları,
Uzadaraq əllərin.
Sındırdı otaqdakı
Bu gecə tilsimlərin.

İşığın yanmağıyla
Otağında qəfildən.
Boğazından qeyb oldu,
O güclü əllər birdən.

Əvvəlcə anlamadı,
Oğlan bu hadisəni.
Huşu gəldi başına,
Dərk elədi kimsəni.

Oğlan baxıb Anaya
Sandı həyat yoldaşı.
Sonra diqqət eləyib
Gördü Ana sirdaşı.

Dedi: - Nə vaxtdan bəri
Məni boğurlar, Ana!
Niyə vaxtında gəlib
Sən çatmadın imdada?

Ana cavab verdi ki,
Mən indicə bilmişəm.
Xırıltını eşidib
İmdadına gəlmişəm

Eşidib bu sözləri
Diksinərək ayıldı.
Gördüyü bu yuxudan
Oğlan məəttəl qaldı.

O, həyat yoldaşını
Oyatdı hay-harayla.
Yuxuda gördüyünü
Nəql eylədi sırayla.

Bir müddət heç çıxmadı,
Bu həyəcan canından.
Hələ tam sağalmamış
Bu oğlanın qanından.

Həmin o müdhiş gecə
Keçib getdi aradan.
Dəhşətli xəbər gəldi,
Səhər-səhər çadırdan.

Yel qanadlı olurmuş
Qara xəbər nə yaman.
Oğlunu gözləməyə
Əcəl verməyib aman.

Axı nə çox qocaydı,
Nə də xəstə deyildi.
Oğlun xilas edibsə
O, günahkar deyildi.

Oğlunun əvəzinə
Ana gedib rəhmətə.
Onun bu hərəkəti
Layiqdir hər hörmətə.

Bu yuxunu yozdular,
Biliciler yozuma.
Demək qismət belədir,
Pozu yoxdur yazıya:

”Əzrayıl gəlmiş imiş
Oğlanı aparmağa.
Onun gənc bədənindən
Ruhunu ayırmağa.

Ana imkan vermədi,
Heç qorxmadı fələkdən.
Balasını qurtardı
Ölüm adlı mələkdən.

Acıqlandı Əzrayıl,
Aparmadı balanı.
Oğlanın əvəzinə
Tez apardı Ananı".

## EPİLOQ

Tərs fırlandı zalım fələk,
İllər tez-tez ötüb keçdi.
Toxunmadı zalımlara,
Məzlumları seçib-biçdi.

Yaxşı baxın ey insanlar,
Kimlər qaldı, kimlər getdi.
Yağmalandı doğma yurdum,
Qız-gəlinlər əsir getdi.

Heç günahsız xalqım üçün,
Bundan böyük dərdmi olar?
Duz-çörəyə dönük çıxan,
Namərd dönüb mərdmi olar?

Tarix üçün yazılanlar,
Lazım olar gələcəkdə.
Gördüyümüz faciələr,
Yaşayacaq ürəklərdə.

***1998***

## ƏSGƏR SEVGİSİ

Mən hərbi xidmətə yollanan zaman,
”Sağ get, salamat gəl!” - söylədin gülüm!
Dedin özgəsinə sevirəm desəm,
Qoy yansın, od tutub alışsın dilim.

Dedin ki, istərəm saf ürəyini
Dünyada heç zaman sıxmasın kədər.
İnan ki, sevgilim, sevirəm səni,
Sevirəm, sevirəm dünyalar qədər.

Ağlaya-ağlaya vidalaşanda,
Qəm-qüssə bürüdü gər gözlərini.
Dedin ki, xidmətdən sən qayıdanda,
Deyəcəm ən gözəl, xoş sözlərimi.

Hərbi xidmətimi eyləyən zaman,
Hər gecə yuxumda görürdüm səni.
Həsrətli günlərin ayrılığından,
Daha da ürəkdən sevirdim səni.

Əsgərlik dövrünü vuraraq başa,
Oradan yollandım öz evimizə.

Görüşüb-öpüşüb doğmalarımla,
Tələsik zəng etdim gizlincə sizə.

Bülbül kimi uçub gəlmək istədim,
Sənin kimi gözəl gülün ətrinə.
Ancaq biləndə ki, sevdin özgəsin,
Sənin yalanların dəydi xətrimə.

Səninlə görüşmək istədiyimi,
Sevinə-sevinə söylədim yenə.
Sənsə cavabında kobudcasına,
Dedin ki, ”bir daha zəng etmə mənə!”

Kədərlə soruşdum: – ”Nə olub, ay qız,
Haradan bu fikir gəlib ağlına?”
Dedin ki, “incimə vurulmuşam mən,
Səndən yaraşıqlı gənc bir oğlana”.

Birtəhər özümü alaraq ələ,
Dedim: - ”Gəl görüşək, son dəfə barı”.
Sənsə söylədin ki, gələ bilmərəm,
Aldada bilmərəm mən təzə yarı”.

Nəhayət soruşdum: – ”Təzə sevgilin
Sənintək ürəkdən sevirmi səni?”

Sənsə utanmadan qəhqəhə çəkdin,
Söylədin: - ”Çox sevir sevgilim məni”.

Yanıqlı-yanıqlı bir ah çəkərək,
”Kimdir o bəxtəvər? - soruşdum səndən.
Yenə də gülərək istehza ilə,
Uşaqlıq dostunun adın çəkdin sən.

Sanki göy gurladı, ildırım çaxdı,
Göylərdən başıma daşlar ələndi.
Az qaldı partlasın yazıq ürəyim,
Qəlbim alovlandı, oda bələndi.

Dedim: – Ey vəfasız, uşaqlıq çağı,
”Qardaşım” – deyirdin həmin oğlana.
Bacı da qardaşa vurularmı heç,
Apar dua yazdır, o kəm ağlına.

Üz tutub göylərə deyirəm, Allah,
Gör necə vəfasız olurmuş qızlar.
Canının yarısın itirən oğlan,
Əlacsız qalaraq ağlayar, sızlar

Aradan keçmədi heç iki ay da,
Utana-utana gəldin yanıma.

Açıb qollarını haça yol kimi,
Ağlaya-ağlaya saldın boynuma.

Dedin: ”O yalançı, o namərd oğlan,
Şirin dilləriylə aldatdı məni.
Barmaqda fırlanan oyuncaq kimi,
Oynadıb, oynadıb tez atdı məni.

İndi başa düşdüm mən səhvlərimi,
İnan ki, sevgilim məxsusam sənə.
Gəldim günahımı yuyum qanımla,
Gəl öldür, yazığın gəlməsin mənə!”.

Dedim ki, ”ay axmaq, yaxşı qulaq as,
Belə bir məsəli deyib atalar.
Həyatda oynaşa umud olanlar,
Həmişə qartıyıb ərsiz qalarlar.

Kimsə durub sənə eşq oxuyanda,
Gərək bu məsəli xatırlayaydın.
Həm böyük Allahı, həm də özünü,
Həm də ki, məni heç unutmayaydın.

İki il gəzdirdim bu dar sinəmdə,
Sənin o yalançı məhəbbətini.

Yaxşı ki, xidmətdən mən qayıdanda,
Sən özün bildirdin xəyanətini.

Sənə bəslədiyim saf məhəbbəti,
Rəqibin ayağı altına saldın.
Ağılsız, şüursuz hərəkətinlə,
Bu gözəl həyatda tək-tənha qaldın.

Tanrıdan verilən o gözəlliyi,
Həyatda xərclədin para-pul kimi.
Bilmədin sevgimin qədir-qiymətin,
Satıldın rəqibə qara qul kimi.

Get, get ey vəfasız, əl çək yaxamdan,
Sənintək gözəldən mənə yar olmaz.
Riyakar əğyarın yağlı dilinə,
Aldanan qızlarda etibar olmaz!...”

***2000***

## QADIN-SİRLİ TAPMACA

*“Həyat ziddiyyətlərin vəhdətidir!”-*
*kəlamı əbəs deyilməyib.*

Biz kişilər yaşasaq da bir ömür,
Bilmirik yaranıb haradan adın.
Daxili dünyanı bir kimsə bilmir,
Axı söylə görüm kimsən, ey qadın!

Bu gecə-gündüzlü gözəl həyatda,
Sənli əməlləri qınamaq olmur.
O mələk simalı çöhrənin altda,
Gizlənən kimliyi tanımaq olmur.

Min illər çalışıb böyük dahilər,
Heç kim açammayıb şəxsiyyətini.
Sənin kimliyini tək Allah bilir,
Gəl özün açıqla öz niyyətini!

Tanrımız yaradıb yeddi qələmlə,
Qadını ən gözəl sənət əsəri.
Birlikdə olanda təzə gəlinlə,
Bağışlar kişiyə cənnət təsiri.

Yer-göyü var edən Tanrıdan böylə,
Qadındır ikinci yaradan qüvvə.
İstəsə kişini qaldırar göyə,
İstəsə bir anda sürüyər məhvə.

Qadın qaşlarını aldırır, sanki,
Ömrü uzatmaqçün eyləyir təlim.
Elə bil həyatın uzadır, çünki,
Qaş-göz arasında yerləşir ölüm.

Ulu Prometeyi dara çəkiblər,
İnsana verdiyi odun üstündə.
Dünyada minlərlə müharibələr,
Tarixdə baş verib qadın üstündə.

Bu gəldi-gedərli fani dünyada,
Torpağı anatək qəbul etmişik.
Haqqı, ədaləti yalan dünyada,
Axtara-axtara itib getmişik.

Mərdlər el-obanı qoruyan zaman,
Şirin canlarını fəda edirlər.
Yadlar üstümüzə şığıyan zaman,
Ana yurd uğrunda qurban gedirlər.

Bizə həzin-həzin laylalar çalan,
Həm də həyat verən iki varlıq var.
Bəsləyib böyüdən, qoynuna alan,
Ulu Yaradanla Ana Torpaq var.

İnsanlar sevirlər hər ikisini,
İman gətirirlər öncə Tanrıya.
Becərib-qoruyub yurdu, Vətəni,
Təzim eyləyirlər Ata-Anaya.

Var isə torpağın bir az saflığı,
O qədər təmizdir yer ənginliyi.
Nə qədər torpağın var çirkablığı,
O qədər çirklidir hər zənginliyi.

Əzizim, əbədi deyildir həyat,
Onu ləyaqətlə yaşamaq gərək.
Müqəddəs sevgini, şirin neməti,
Çiyində şərəflə daşımaq gərək.

Nə qədər yetirir saf məhsulları,
O qədər həzm edir natəmizliyi.
Atır bədəndəki tullantıları,
Çəkir körpə kimi hər təmizliyi.

Anadan qan ilə qidalanan döl,
Bütün aldıqların qaytarır ona.
Nə qədər tufanla çalxalansa göl,
Vaxtında təlatüm yetişir sona.

Demək həm adilik, həm müqəddəslik,
Həyatda yaşayır daim yanaşı.
Həqiqət budur ki, dərk etməliyik,
Ana torpağın da vardır anası.

Vallah möcüzəli, ecazkar qadın,
Cavabı olmayan bir tapmacadır.
Həyatı məst edən füsünkar adı,
Ulu Yaradandan bir yapmacadır.

Qadın sirlərini açmaq yolunda,
Daim axtarışda olub dahilər.
Cavab tapmayanda yesir halında,
Əlçatmaz qalmışdır uzaq sahillər.

Şeyx Sədi Şirazi qırx ilə qədər,
Vaxtını həsr edib bu sirrə məxsus.
Ömrünün çoxunu bu işə hədər,
Sərf etdiyi üçün eyləyib əfsus.

Bir ömür sərf etmiş, düşmüş pis hala,
Dərk etmiş ki, qadın sirli bir düyün.
Ömürlər qəhr edən bu sirr-suala,
Cavab tapılarmı indi siz deyin?!

* * *

Ey qadın, görəsən axı sən kimsən?
Ziyalı, müəllim, həm də həkimsən.
Həyatda kişidən böyük çoxluqsan,
Nəsil davamçısı doğan məxluqsan.

Təpədən dırnağa bicsən, kələksən,
Həm də ay sifətli gözəl mələksən.
Sən həm can verənsən, həm can alansan,
Sən həm həqiqətsən, həm də yalansan.

Mənə həm doğmasan, həm də ögeysən,
Atını dörd nala çapan cokeysən.
İlahi qüvvəsən, fitnə-fəsadsan,
Bəzən də ağıldan kəmsən, kasadsan.

Hər kimsən, çirkabsan, diri-ölüsən,
Kişinin qəlbində cənnət gülüsən.
Qırx il baş qoysan da birgə yastığa,
Gətirmək çətindir səni dostluğa.

* * *

....Böyük şəxsiyyətlər əsrlər boyu,
Qadın fitnəsinin olmuş qurbanı.
Qazmış nər kişiyə qırx arşın quyu,
Tələyə salanda batmış karvanı.

Fitnəsin gizlədir daim ərindən,
Hiylədən qaçmağın min cür yolu var.
Mümkün yox qurtulmaq qadın şərindən,
Onun evlər yıxan qalmaqalı var.

Əksər qırğınların vardır səbəbi,
Qadının gözündə saxta yaşı var.
Axtarsan, görərsən, budur səbəbi,
Onun özülündə ”qadın daşı” var.

Saxlaya bilmirsən sirri, ey qadın,
İstəkli insanı sən məhv edirsən.
İpinin üstünə yığılmaz odun,
Yalnız sən bilirsən, hara gedirsən.

Səninlə şərikli alver edən kəs,
İnanıb vədinə bağ-bağat əkər.
Səninsə əkdiyin ağac bar verməz,
O yazıq şərikin hey ziyan çəkər.

Əgər görünsəydin olduğun kimi,
Kişinin gözündə çox ucalardın.
Ancaq olsa idin göründüyüntək,
Yarının qəlbində tez alçalardın.

Sənin sirlərinin qorunmasında,
Gözəllik, zəriflik coşub qaynayır.
Kişidə məhəbbət yaranmasında,
Xarici görkəmin çox rol oynayır.

Həyat davam edir, beləcə gərgin,
Ey qadın, bəs nədir kişidən fərqin?

Kişilər həyatda dolduqca yaşa,
Hərislik azalır dünya malına.
Sənsə pul görəndə gəlirsən cuşa,
Uyursan İblisin qalmaqalına.

Kişi yaş ötdükcə gənclik səhvinə
Tənqidi yanaşıb peşman olursa,
Sənsə ömrün boyu etmədiyinə
Həyatda həmişə peşman olursan.

Real həqiqəti danışdığıma,
Mən səndən ürəkdən üzr istəyirəm.
Hər şeyə səmimi yanaşdığımı,
Yadına salmağı ərk eyləyirəm.

Sən mənim anamsan, həm də bacımsan,
Həyat yoldaşımsan, həm də qızımsan.
Başımda ucalan qızıl tacımsan,
Huri-mələyimsən, körpə quzumsan.

Bax ona görə də dediklərimə,
Heç vaxt qərəzliklə yanaşma, qadın!
Kişi qeybətini qılıb həmişə,
Onun əleyhinə danışma, qadın!

Qeybət qıla-qıla edib qarğışı,
Kişi evi yıxmaq sənin işindir.
Sanki ara vuran məhlə darğası,
Ailə dağıtmaq köhnə peşəndir.

Saxta əməllərlə tarixlər boyu,
Kimi gah ağladıb, gah güldürmüsən.
Nə qədər insana qazaraq quyu,
Xəyanət edərək tez öldürmüsən.

Bu sənin daxili bir aləmindir,
Sən elə bu cürə olmalısanmış.
Böyük Yaradanın öz istəyiylə,
Kişini bəlaya salmalısanmış.

Yada sal keçmişi, sənin nəfsinin
Qurbanı olubdur Həzrəti Adəm.
Qəzəbi tutubdur Tanrının sənə,
Cənnətdən qovubdur sizi namüdəm.

İncimə fikrimdən ey gözəl məxluq,
Yanlışlıq olsaydı bu sözlərimdə,
Sənin əməlində olsaydı saflıq,
Həqiqət tapardı yar gözlərində.

Tanrı istəyiylə qadın olmayıb,
Yüz iyirmi dörd min "Elçi"dən biri.
Qadıntək tarixə adın salmayıb,
On iki İmamdan bircə rəhbəri.

Uzaqgörənlikdən məhrumsan ay qız,
Uydun yaranandan şana-şöhrətə.
Məkrlə yaşadın bu günlə yalqız,
Hərissən həm pula, mala, dövlətə.

Sənin hissiyyatın ey gözəl pəri,
Həmişə şüurdan yüksək olubdur.
İncimə sözümdən, çox heyiflər ki,
Qadınlar indi də belə qalıbdır.

Buna baxmayaraq sən nəzərimdə,
İlahi gözəlsən, zərif məxluqsan.
Sevən kişilərin “kor” gözlərində,
Doğmasan, incəsən, əziz varlıqsan.

Onu da deyim ki, sənsiz bircə gün,
Beləcə yaşaya bilmərəm, inan!
Zəngin eyləyirsən həyatımı sən,
Yaşaya bilməsəm gülmərəm, inan!

Bax bu fani dünyam səninlə birgə,
Sənin hesabına dönür cənnətə.
Ömür yollarında sən hürkə-hürkə,
Həm də rast gəlirsən çox müxənnətə.

Yadında saxla ki, nə cür olsan da,
Canımın canısan, mənim paramsan.
Bəzən fitnə-felə uyub qalsan da,
Canımın yarısı gözəl yarımsan!..

***2011***

# SEVDALI DUYĞULAR
*(Aforizmlər)*

Qoca təbiətə insan varlığı,
Tanrının ən böyük hədiyyəsidir.
Əsil kişilərə qadın yarlığı
Sehirli, sevdalı bədiyyəsidir.

Bülbül cəh-cəh vurub coşsa gül solmaz,
Sevən  könüllərdə kədər-qəm qalmaz.

Kolu susuz qalsa al gül inciyər,
Gül də açılmasa bülbül inciyər.

Olsa yer üzünün bəzəyi hər gül,
Oxuyar şaxlarda bəlalı bülbül.

Vaxtsız açılan gül tezliklə solar,
Bülbülün gözləri yaş ilə dolar.

Bülbül cəh-cəh vurub ərz edər gülə,
Sözsə deyilməkçün sığınar dilə.

Qadının çöhrəsi saçarsa işıq,
Bütün ətrafına verər yaraşıq.

Göz qəlbin aynası, ön bərəsidir,
Sevən könüllərin pəncərəsidir.

Sevib-sevilənlər etsələr vəfa,
Ömür yollarında çəkməzlər cəfa.

Vurulub sevənlər tez bəndə düşər,
Qəlbi eşq içində kəməndə düşər.

Sevgi bir bəladır, açar qucağın,
Qəlblərdə yandırar odun-ocağın.

Sevib-sevildə hey ucalarsan,
Ancaq sevilməsən tez qocalarsan.

Məhəbbət həyatın musiqisidir,
Sevən ürəklərin könül səsidir.

Məhəbbət sönməyən bir ehtirasdır,
Hisslərə hörmətdir, gur ehtiramdır.

Məhəbbət əzabı ülvi əzabdır,
Ən nəcib, ən şirin bir iztirabdır.

Ülvi bir məhəbbət olsa qadında,
Əbədi saxlayar onu yadında.

Qadını sevgisiz yaşatmaq çətin,
Onu xoşbəxt edər saf məhəbbətin.

Sevgi qarşılıqlı olmazsa əgər,
Xoşbəxtlik, səadət olarmı məgər?

Sevgi əsasında kəsilən nigah,
Xoşbəxt bir ailə yaradar, hərgah.

Səadət bəxş etmək gözəl əməkdir,
İnsana xoşbəxtlik verən köməkdir.

Sevilən qız çöhrəsiylə öyünər,
Başqa gözəllərdən qəşəng görünər.

Eşq elə sirdir ki, gəlmir hər dilə,
Onu örtmək olmur, min pərdə ilə.

Eşqi ar-namusdan üstün tutanlar,
Daim yanılırlar, uyub yatanlar.

Süni bir çiçəyin ətiri olmaz,
Sevməyən ürəyin çətiri olmaz.

Gözəllik sevgiyə deyil kifayət,
Eşqə səbəb olur, daim sədaqət.

Qadını ürəkdən sevməkdən öncə,
Onun xasiyyətin öyrən, bilincə.

Həyatda yar seçmək çətin əməkdir,
Bu işdə yanılmaq yanmaq deməkdir.

Sevgi bir döyüşdür, başlamaq asan,
Ancaq vəsf eləmək çətindir, yazsan.

Yarı sevgisiylə xoşbəxt edən kəs,
Həyatda bir bədbəxt heç ola bilməz.

İnsanı öldürməz eşqin bəlası,
Ancaq ki, sağalmaz sevgi yarası.

Ər-arvad sevgisi olmazsa əgər,
Ailə həyatın məhvə tez çəkər.

Vəfalı insanlar həmişə mərddir,
Əhdini pozanlar rəzil-namərddir.

Həyatda ağıllı olarsa kişi,
Sevgidə düz gələr, onun hər işi.

Canan ələ gəlməz, can getməyincə,
Ürəyi yumşalmaz, an yetməyincə.

Gözəli sevən kəs canından keçər,
Əğyarı öldürüb qanından içər.

Çəkməyən nə bilir sevda dərdini,
Qız sevər oğlanın darda mərdini.

Görərsən özünü baxsan güzgüyə,
Yar yarı qısqanar, qıymaz özgəyə.

Yarından ayrılan candan ayrılar,
Yar üçün qılınctək qından sıyrılar.

Könüldür arzunun həyat mənbəyi,
Sevgi alışanda yoxdur sönməyi.

Könül bir saraydır, zordur tikməsi,
Özül zəif olsa vardır çökməsi.

İnsanın könülü şəffaf bir şüşə,
Sındırsan bitişməz, yaramaz işə.

Alçaq riyakarlar qalxıb ucalmaz,
Sevib-sevilənlər qəlbən qocalmaz.

Tamah salma özgəsinin aşına,
Yar yarın dolanar daim başına.

Əgər göz görməsə könül bulanmaz,
Gəlməz təlatümə, heç çalxalanmaz.

Sevgi bir od deyil, oddan yamandır,
Gözləri ”kor edən” qatı dumandır.

Sevgi bəzən verir qəlbi güdaza,
Bəzən də çevirir vəhşi quduza.

Təki sevgilimə gedib çataydım.
Birgə həyat sürüb, rahat yataydım.

## *Qadın – sirli tapmaca*

Sevənin gözündə bir pərdə olar,
Qəlbi təlatümdə, dərd-sərdə olar.

Düşsə də bir qızı sevən çətinə,
Daim çörək atar onun itinə.

Heç vaxt köhnə sevgi köhnəlməz, inan,
Əsil məhəbbəti qocaltmaz zaman.

Arzu bir quyudur, doldurmaq olmaz,
Qadın bir çiçəkdir, soldurmaq olmaz.

Heç vaxt olmayıbdır sonu arzunun,
Doğulur birindən onu arzunun.

Ar-namus igidin bir bəlasıdır,
Əsil kişilərin yar qalasıdır.

Biqeyrətlər arı yeyib uçarlar,
Namusu dalına atıb qaçarlar.

Abırsız, həyasız, arsız qocalmaz,
Heç zaman həyatda onlar ucalmaz.

Əgər mövcud isə qəbir əzabı,
Ondan da ağırdır abır əzabı.

İnsanla oynayır sevgi küləyi,
Qisməti gətirir ona taleyi.

Təqsir insandadır, deyil taledə,
Sevib-seviləni sevər eli də.

Kim çatsa taleyin zər-xarasına,
Yarı məlhəm olar yar-yarasına.

Qızıldan, gümüşdən olunca taxtım,
Oleydi bir kiçik, balaca bəxtim.

Ər kişi altında atı var olar,
Qeyrətin altında namus, ar olar.

Ailə qədrini bilməyən bir kəs,
El-oba qədrini heç zaman bilməz.

Yar yara verməsə çörəyi yavan,
Yaxşı at saxlayar kişini cavan.

Kişinin hörməti öz əlindədir,
Arvadın abırlı əməlindədir.

Kişi sevdiyinin çəkər nazını,
Yarın sevdasına qatar duzunu.

Bol olmaz kişisiz evin ruzisi,
Bunu bilməlidir qadın, kəsəsi.

Ər ilə arvadın olsa davası,
Sanki guruldayar cahan savaşı.

Kişinin olmasa namus-qeyrəti,
Heç vaxt olmayacaq onun hörməti.

Qeyrətlilər susub xiffət edərlər,
Qeyrətsizlər coşub qeybət edərlər.

Qeyrətlinin qanbahası namusdur,
Biqeyrətlər gecə gəzən kabusdur.

Alınıb satılar hər şey dünyada,
Tək namus satılmaz yaxına, yada.

Ərin qeyrətidir qadın isməti,
Ana qismətidir ərin hizməti.

Həyatda bəxtini sən varda sına,
Namusu, qeyrəti dön yarda sına.

Çəkməyən nə bilər sevda qədrini,
Cəfa çəkən bilər şeyda qədrini.

Əgər yusan gedər qazan qarası,
Heç zaman silinməz namus yarası.

Namusu atdılar, it də yemədi,
Ona toxunmayıb daha hürmədi.

Namus əldən getsə dönməyir geri,
Onun bu dünyada yox bəlli yeri.

Əsil kişi el yolunda can verər,
Namus üstdə qan axıdar, qan verər.

Bir əhdə təcavüz eyləsə gəda,
Yar etməz yarını rəqibə fəda.

Yar yara eşqini eyləyər agah,
Könül sevgisiylə bağlayar nigah.

Kim ki, zəlil olur eşqin yolunda,
Mənlik nişanəsi qalmayır onda.

Yar yarın eşqinə olmasa layiq,
Yara aşiq deyər, əğyara məşuq.

Qaytarmaq olmursa tale payını,
Tapsa yaxşı olar taylı-tayını.

Yarına xəyanət eyləyirsə yar,
Onu saxlamağın nə mənası var.

Hicran ağrısıdır, ən acı ağrı,
Mənəvi işgəncə ağrıdır bağrı.

Arxası əks etməz heç vaxt güzgünün,
Oğul səninkidir, qızsa özgənin.

Camaat qız verdi, quda qazandı,
Mən isə qız verdim, qada qazandım.

Ərlik qızın dili altda qənd gərək,
Gəlininsə dili altda fənd gərək.

El-oba yığıldı dərdi çözməyə,
Gəlin fənd işlədib getdi gəzməyə.

Anası bir dəfə çıxan ağacı,
Budaq-budaq gəzmək qızın əlacı.

Atanın evində ögey ana-dad,
Ərinin evində qayınana-dad!

Ana ailənin vuran ürəyi,
Ata bel sütunu, duran dirəyi.

Ana ailənin ar bayrağıdır,
Ata ailənin bar oylağıdır.

Ana öz qızına təzə taxt dilər,
Ata öz qızına gözəl bəxt dilər.

Kişi təbiətin coşan selidir,
Arvad isə onun bəndi, gölüdür.

Öz ərinə görə bağla başını,
Qazanına görə dəmlə aşını.

Bir arvad kişiyə əladır, əla,
Çox arvad kişiyə gətirər bəla.

Ər-arvad birliyi xovlu ipəkdir,
Araya girənsə hürən köpəkdir.

Arvad var ev tikib zirvəyə çıxar,
Arvad var kişinin evini yıxar.

Susuz dəyirmandır arvadsız bir ev,
Qızı tənhalıqdan oğurlayar dev.

Ağlamaq arvadın axır hiyləsi,
Çarəsi yoxdursa axı neyləsin?

Əgər işin düşsə bir gün arvada,
Diz çökən anını dərhal sal yada!

Kişi nəzakəti ömrün naxşıdır,
Qadın sədaqəti ərçün yaxşıdır.

Tanınar abırsız qadın, gözüylə,
Seçilər ağıllı qadın, sözüylə.

Ləyaqətli qadın nəqşi-cahandır,
Həyasız qadınsa əfi ilandır.

Həya məhəbbətin soy anasıdır,
Sevən könüllərin qaynanasıdır.

Sevgini məhv edir yalnız xəyanət,
O isə baş versə, qopar qiyamət.

Olsa xəyanətkar zənən xeylağı,
Olar binamusun sözü lağlağı.

Qadın kim olsa da işi anında.
Yalnız qadınlaşır KİŞİ yanında.

Pişiyin ağızı çatmasa ətə,
"Yediyin murdardır!" - söyləyər itə.

# KİTABIN İÇİNDƏKİLƏR

*Ön söz.........................................................3*

## *Sevgili-sözlü dünyam*

*Qoşa beşli əlli beşim...................................13*
*Ana.......................................................15*
*Pəri......................................................16*
*Cənub gözəli...........................................18*
*Sevgi məktubu.........................................20*
*Sevgi sirləri.............................................22*
*Tale qisməti.............................................24*
*Aybəniz...................................................25*
*Ay gözəl...................................................26*
*Ay qız......................................................27*
*Ürəyinlə gələsən......................................28*

*Gözəl......................................................................29*
*Məhəbbət.................................................................31*
*Sevgilimə.................................................................32*
*Qızıl gülüm..............................................................33*
*Alın yazısı................................................................34*
*Küsüb gedən yar......................................................35*
*Sel kimi....................................................................36*
*Qovuşum sənə.........................................................36*
*Şux gözəllərə...........................................................37*
*Qalma biganə...........................................................39*
*Qadan alım...............................................................40*
*Niyə küsmüsən.........................................................41*
*Məhəbbət yaşa baxmır.............................................43*
*Xoş gəlmisən............................................................44*
*Xəstəliyin dərmanı...................................................45*
*Yadigar.....................................................................46*
*Olmusan mənə doğma..............................................47*
*Ana...........................................................................48*
*Ay etibarsız... ...........................................................49*
*Şükür........................................................................51*
*Ay oğlan....................................................................53*

*Gəncliyimdən gələn qız................................55*
*Yenidən dünyaya gəlməyim gəlir..................58*
*Tanrı hədiyyəsi............................................59*
*Sevişdiyi oğlan onu atıbmış..........................61*
*Tufan mələyi................................................63*
*Bəsimdi.......................................................65*
*Eşq yoluna səyahət......................................66*
*Qəlbinin hakimi olsa özgəsi..........................68*
*Əlli yaşlı gözəlçə..........................................70*
*Dünya..........................................................72*
*Olmur...........................................................74*
*Gözümün içindən süzürsən məni................75*
*Sarı qız..........................................................76*
*Qəlbin göz yaşını necə silim mən................77*
*Deyir.............................................................79*
*Kişi və qadın..................................................81*
*Bilər...............................................................82*
*Satdı məni......................................................83*
*Ədabaz qızla deyişmə...................................84*
*Toy gecəsi......................................................85*
*Əhdinə düzüm mənim...................................87*

Əməlin qaldırdı səni zirvəyə..........................88
Nur çilədin gözümə.......................................89
Mahirə.......................................................91

## Təbriklər

Sağlığına....................................................93
Təzə gəlin...................................................95
Mübarək olsun.............................................96
Ürəkdən təbrik edir.......................................97
Ürəkdən sevin..............................................98
Sevinc mələyim..........................................100
Ərməğan olsun...........................................102
Qarabağın sonası.......................................103
Ay qız........................................................104
Həmkarların tost deyirlər adına..................105
Ən gözəlsən gözəllər arasında..................105
Qayıdasan yurduna.....................................106
Qismətin olsun...........................................107
Bənzəyəsən qızıl gülə...............................108
Nur kimi.....................................................110
Nuridə........................................................111
Ayırmasın bizi ölüm....................................113

## *Poemalar*

*Ana sevgisi..................................................115*
*Əsgər sevgisi...............................................144*
*Qadın sirli tapmaca.....................................149*

*Sevdalı duyğular (aforizmlər)......................159*

*Nəşriyyatın direktoru*
*Əlirza SAYILOV*

*Yaqub Məğrur*
*Qadın*
*– sirli tapmaca*
*Bakı, "Araz" nəşriyyatı, 2012*

*Korrektor:*
*Əsmər Əlirzaqızı*

*Kompüter tərtibatçısı:*
*Tünzalə Vahabova*

*Yığılmağa verilmişdir: 05.01.2012*
*Çapa imzalanmışdır: 20.04.2012*
*Kağız formatı: 70x90 1/32*
*Şərti çap vərəqi: 6*
*Uçot nəşr vərəqi: 5.6*
*Sifariş: 23*
*Sayı: 200*
*Qiyməti müqavilə ilə*

*"Araz" nəşriyyatının mətbəəsində*
*ofset üsulu*
*ilə çap olunmuşdur.*

"ARAZ" NƏŞRİYYATI

Bakı, Mətbuat
prospekti
Tel: 432-34-82